www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24-29 iyun 2017-ci il Şənbə № 135 (6749) Qiyməti 60 qəpik

Xəbər

**Ramazan bayramınız və Ordu gününüz mübarək!**

## Gündəm

### Ölkəmiz dünya mediasının manşetində



Qulu Məhərrəmli: ""Formula 1" yarışları Azərbaycan üçün yaxşı təbliğat imkanı yaradır"

yazısı səh.4-də

### Dövlətə yük olan iri ASC və QSC-lər

yazısı səh.3-də

### Abutalıbovdan sonra gələcək BŞİH rəhbəri nəyi və necə dəyişəcək...

yazısı səh.6-da

### Məmurları gəlir bəyannaməsindən "azad edən" səbəblər

yazısı səh.10-da

### Ənənəvi müxalifətə və liderlərə "dövrünüz bitib" mesajı

yazısı səh.6-da

### Suriya münaqişəsinin taleyində ciddi dönüş

yazısı səh.12-də

### Ərəb ölkələrindən Qətərə Türkiyə həmləsi

yazısı səh.11-də

### "Tramp dünya üçün təhlükəyə çevrilir" - iddia

yazısı səh.12-də

### Ana südü əleyhinə aparılan kampaniyada biznes maraqları

yazısı səh.15-də

### Ramazan ayının 29-cu günü

İftar 20.31. İmsak 03.09-dək (QMİ)

29-cu günün duası: "İlahi, bu gün məni Öz rəhmətinlə əhatə et! Belə bir gündə işlərimin uyğun olmağını və hər bir azğınlıqdan qorunmağı mənə nəsib et! Mənim qəlbimi şübhəli işlərdən, qaranlıq yollardan və töhmət gətirən əməllərdən pak et! Ey mömin bəndələrinə rəhm edən Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Moskvada hazırlanan gizli plan haqda şok bilgilər

# ABBAS ABBASOV HAKİMİYYƏTƏ QARŞI YENİ İTTİFAQ QURUR

Sabiq nəqliyyat naziri Ziya Məmmədovun işdən uzaqlaşdırılması ilə Abbas Abbasovun hakimiyyətlə olan bütün gizli bağları da corab söküyü kimi süzülüb; sabiq vitse-primyer 2018-ci ildə mütləq Azərbaycana qayıdacağı və seçkilərdə iştirak edəcəyi mesajını verib, amma...




yazısı səh.8-də

## Azərbaycanın hərbi sənayesi güclənir - işğalçının yuxusunu qaçıran gəlişmə

Prezident İlham Əliyev yeni hərbi zavodun açılışını etdi; xaricdən silah asılılığımız azalır; Bakı Ermənistanla informasiya savaşını da gücləndirir: Kremlin daha bir ideoloqu Bakıda...

yazısı səh.9-da



Elçin Mirzəbəyli:

### "Amerikalılar da, ruslar da, digərləri də kürdləri aldadacaqlar"

yazısı səh.11-də



### Bu gün Əbülfəz Elçibəyin doğum günüdür

yazısı səh.5-də



### Nəriman Nərimanov - Azərbaycanın düşməni, yoxsa xilaskarı...

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 135 (6749) 24 iyun 2017

## Məhkəmə “Porsche” ilə qəza törədən yeniyetmə barədə qərar verdi

**Məhkəmə “Porsche” ilə qəza törədən yeniyetmə barədə qərar verib. Bakı Şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, Sabunçu Rayon Məhkəməsi Sabunçu Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyasının cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış Adil Məmmədovun (ad və soyad şərtidir) barəsində tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməsinə dair vəsatətini təmin edərək, onun qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə 22 iyun 2017-ci il tarixdə qərar qəbul edib.**



Qərarın icrası Sabunçu İcra Hakimiyyətində fəaliyyət göstərən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya və Sabunçu Rayon Polis İdarəsinə həvalə edilib.

Qeyd edək ki, bu il mayın 3-də naməlum avtomobilin sürücüsü Sabunçu rayonu ərazisində hərəkətdə olarkən piyada, 24 yaşlı Məmmədova Xəyalə Ənvər qızını vuraraq hadisə yerindən qaçıb. X. Məmmədova aldığı bədən xəsarətlərindən 3 saylı Şəhər Kliniki Xəstəxanasında vəfat edib.

Fakta görə Sabunçu Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 263.2 və 264-cü maddələri ilə cinayət işi başlanıb.

Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində yol-nəqliyyat hadisəsinin “Porsche” markalı, 99-BS-999 dövlət nömrə nişanlı avtomobili idarə edən azyaşlı Adil Məmmədov tərəfindən törədilməsi müəyyən edilib.

Cinayət işi həmin məcəllənin 263-1.3 (Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (Yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələrinə tövsif edilib.

Nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxs - Nadir Məmmədov (ad və soyad şərtidir) tərəfindən nəqliyyat vasitəsini idarə etmək üçün idarə etmə hüququ olmayan şəxsə - azyaşlı oğlu A. Məmmədova verdiyinə görə barəsində İnzibati Xətalar Məcəlləsinin 335.3-cü maddəsində nəzərdə tutulan inzibati tənbeh tətbiq edilib.

## Bakıda evə basqın edərək məşuqəsini öldürən şəxs tutulub

**Bakıda evə basqın edərək bir nəfəri qətlə yetirib, 2 nəfərə xəsarət yetirməkdə şübhəli bilinən şəxs tutulub. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, hadisəni törətməkdə şübhəli bilinən şəxslərdən biri, 1991-ci il təvəllüdlü Sənan Məmmədov saxlanılıb.**

Hazırda hadisənin digər iştirakçılarının müəyyən edilərək tutulması istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Qeyd edək ki, məlum hadisə ötən gecə paytaxtın Yasamal rayonu, İbrahim Əbilov 60 ünvanında (keçmiş “Sovetski”) baş verib. Məlumata görə, 1967-ci il təvəllüdlü Həsənova Mətanət Ağamalı qızına məxsus evdə kirayə qalan 1989-cu il təvəllüdlü Əliyeva Mahirə Tofiq qızının keçmişdə münasibətdə olduğu Sənan adlı şəxs 3 nəfərlə birlikdə həmin evə gəlib. Sənan və Mahirə arasında şəxsi zəmində yaranmış münaqişəyə ev sahibəsi və onun oğlu 1991-ci il təvəllüdlü Həsənov Laçın Gülbala oğlu müdaxilə etmək istəyiblər.

Dostlarının köməyi ilə Sənan əvvəlcə ev sahiblərinə, daha sonra Mahirə Əliyevaya bıçaq xəsarətləri yetirib.

Yaralılar 1 saylı kliniki tibbi mərkəzə yerləşdiriliblər. Mahirə Əliyeva xəstəxanada ölüb.

Faktla bağlı cinayət işi başlanıb, istintaq tədbirləri davam etdirilir.


### “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.


# Prezident Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdi

**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**



**Təbrikdə deyilir:**

**- Hörmətli həmvətənlər!**

Sizi dünya müsəlmanlarının müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda Allah və din qarşısında borclarını yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Xalqımız həmişə milli-mənəvi dəyərlərə sadiqliyi ilə seçilib. İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən biri olan Azərbaycanda milli-dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur. Mübarək Ramazan günlərində xeyirxah niyyətlərinizlə həmrəy olduğumu bildirir, bütün dua və diləklərinizin Tanrı dərgahında qəbul olunmasını arzu edirəm.

Bu il Ramazan ayı ölkəmizin həyatında bir sıra əlamətdar hadisələrlə eyni vaxta təsadüf edib. 2017-ci ilin Azərbaycanda “İslam Həmrəyliyi İli” elan edilməsi, IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi, eyni zamanda, etnik-dini dözümlülük, dinlərarası həmrəylik və əməkdaşlıq məkanı olan ölkəmizin sivilizasiyalararası dialoq forumları kimi mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi hazırkı narahat dünyamızda Azərbaycan dövlətinin sülh və təhlükəsizlik işinə verdiyi dəyərli töhfələrdir. Biz bəşəriyyətin gələcəyini hədəf alan hər cür qlobal təhdid və təhlükələrə qarşı ardıcıl mübarizəmizi, dialoq və həmrəylik təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

**Əziz bacı və qardaşlarım!**

Hər il Azərbaycanda böyük fərəh və könül xoşluğu ilə keçirilən oruclucq mərasimləri cəmiyyətimizdə birlik və həmrəyliyin, dostluq və qardaşlıq münasibətlərinin təntənəsinə çevrilir. Bu əziz bayram günlərində bir daha hər birinizi, eyni zamanda, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram!

**Ramazan bayramınız mübarək olsun!**

## Gədəbəyin icra başçısı xəstəxanadakı yorğan-döşəyi çadırlara daşıtdırır



**Gədəbəydə Mərkəzi Xəstəxanadan yorğan-döşəyi rayonun ərazisindəki parka daşıyırlar. Bu haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, xəstəxanada hazırda 100 çarpayıdan 95-dən çarpayıların üzərindəki yataq dəstləri parka daşınıb. Qaynağımız deyib ki, xəstəxanadakı çarpayılardan daşınan yorğan-döşək çadırlara yığılır və bu, icra başçısı Ramiz Yediyarovun göstərişi ilə həyata keçirilir. Başçı baş həkimə qeyri-rəsmi olaraq xəstələr üçün nəzərdə tutulan yorğan-döşəyin parkda tikinti işləri ilə məşğul olan fəhlələrə verilməsini tapşırıbmış. Sakinlər deyirlər ki, xəstəxanadan yorğan-döşəyin daşınaraq fəhlələrə verilməsi R.Yediyarovun rayona başçı təyin olunduğu illər ərzində gördüyü ən təqdirəlayiq addımdır.**

Fikirlərini belə izah edirlər ki, Gədəbəy xəstəxanasında il ərzində çox az xəstə stasionara götürülür. Ən yaxşı halda 5-6 çarpayıda xəstə olur. Digər çarpayılar isə ilboyu istifadəsiz qalır. Amma dövlət büdcəsindən Gədəbəy rayonuna vəsait 5-6 xəstəyə görə deyil, 100 xəstə nəzərə alınmaqla ayrılır. Həmin məbləğin kimlərin cibinə axmasını bilmək üçün xüsusi istintaq aparmağa ehtiyac yoxdur. Yorğan-döşəyin rahat şəkildə çadırlara daşınması tapşırığının canla-başla icrası ümumi mənzərəni ortaya qoyur.

❑ **E.HÜSEYNOV**

## Prokuror 15 il əvvəl Bakıda polisi güllələyib Rusiyaya qaçan şəxsə cəza istədi

**Bakı Ağır Cinayətlər Məhkəməsində 2002-ci ildə Bakıda qəsdən adam öldürməyə cəhddə təqsirləndirilən Eldar Zeynalovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



APA-nın xəbərinə görə, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə çıxış edən dövlət ittihamçısı E. Zeynalovun cəzasının ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə, 13 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Təqsirləndirilən şəxsin vəkili çıxış üçün məhkəmədən vaxt istəyib.

Buna görə məhkəmə prosesi iyunun 29-dək təxirə salınıb.

İttihama görə, E. Zeynalov 3 fevral 2002-ci ildə tanışları - Bağırov Mehman Osman oğlu, Bağırov İlham Osman oğlu, Ağamirzəyev Zakir Yaqub oğlu ilə digər tanışı Alışov Etibar Tofiq oğlunun idarə etdiyi avtomobildə Mehman Bağırovun Zakir Ağamirzəyevi qəsdən öldürməsinin şahidi olub.

Bundan sonra istintaqdan yayınmaq məqsədilə M. Bağırov və İ. Bağırovla birlikdə Bakı şəhərində yerləşən mənzillərdən birində gizlənib. Həmin il fevralın 9-da hadisəni araşdırmaq məqsədilə mənzilə gələn polis əməkdaşlarına evdə olan “Makarov” tipli tapançadan atəş açıb. Nəticədə polis əməkdaşı Məhəmməd Ağayev ağır yaralanıb. Xəstəxanaya çatdırılan M. Ağayevi xilas etmək mümkün olub.

Digər şəxslər həbs olunsa da, E. Zeynalov hadisə yerindən qaçaraq Rusiyaya gedib.

**E.Zeynalov ötən il Rusiyada saxlanılıb.**

## “Yeni Müsavat”ın növbəti sayı iyunun 30-da işıq üzü görəcək

**Nazirlər Kabinetinin “2017-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında” 2016-cı il 25 noyabr tarixli qərarına əsasən 2017-ci ildə 26, 27 iyun tarixləri Ramazan bayramıdır.**

APA-nın məlumatına görə, bu il Ramazan bayramının bir günü 26 iyun - Silahlı Qüvvələr günü ilə üst-üstə düşür.

Əmək Məcəlləsinə əsasən, bununla əlaqədar 28 iyun da istirahət günü olacaq.

Beləliklə, ölkədə 5 gün ardıcıl (24, 25, 26, 27, 28 iyun) qeyri-iş günüdür.

Bu səbəbdən “Yeni Müsavat” qəzetinin növbəti sayı iyunun 30-da işıq üzü görəcək.

YENİ MÜSAVAT
N 135 (6749) 24 iyun 2017

**Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Şirvan şəhərində yerləşən hərbi hissəsinin açılışında iştirak edib.**



# "Ermənistana qarşı çoxdan beynəlxalq sanksiyalar tətbiq olunmalı idi"

## Prezident Şirvanda Daxili Qoşunların hərbi hissəsinin açılışında iştirak etdi, mühüm bəyanatlar səsləndirdi



APA-nın xəbərinə görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubov dövlət başçısına raport verib.

Prezident İlham Əliyevə məlumat verilib ki, hərbi hissədəki yeni binaların inşasına 2012-ci ildə başlanıb və 2017-ci ilin mayında inşaat işləri başa çatdırılıb. Ümumi ərazisi 8,5 hektar olan hərbi hissədə qərargah, kazarma binaları, yeməkxana, tibb məntəqəsi və digər binalar inşa edilib. Binalar mərkəzləşdirilmiş mühəndis kommunikasiya, o cümlədən elektrik, su-kanalizasiya, havalandırma sistemləri, mebel və inventarlarla təchiz edilib.

Qərargah binasının foyesində Heydər Əliyevin və prezident İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğılarını əks etdirən fotostend yaradılıb. Binadakı brifinq və xidməti otaqlar zəruri inventarla təchiz olunub. Burada hərbçilərin yüksək səviyyədə xidmət aparmaları üçün hərtərəfli şərait yaradılıb.

Dövlət başçısı əsgər kazarmasında da olub. Müasir səviyyədə yaradılan kazarmada əsgərlərin qalmaları və istirahət etmələri üçün bütün şərait var.

Sonra dövlət başçısı Daxili Qoşunların hərbi silah-sursat və texnikası və hərbi hissənin əsgər yeməkxanasında yaradılan şəraitlə tanış olub.

Prezident daha sonra Şirvanda revolver tipli qumbaraatanlar üçün atəş yığımları zavodunun açılışında iştirak edib.

**"Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmək istəyirəm, Azərbaycan Silahlı Qüvvələrinə yeni uğurlar, qələbələr arzulayıram" - deyə prezident həmin törəndəki çıxışında bildirib.**

**"AzərTAc"ın xəbərinə görə, dövlət başçısı bildirib ki, bu gözəl bayram ərəfəsində Şirvan şəhərində müdafiə sənayesinin yeni zavodlarının açılışı olub:** "Bu, əlamətdar hadisədir. Bildiyiniz kimi, Müdafiə Sənayesi Nazirliyi mənim sərəncamımla 2005-ci ilin dekabr ayında yaradılmışdır və bu illər ərzində böyük, uğurlu yol keçmişdir. O vaxt bu nazirliyin yaradılması imkan verdi ki, biz özümüzü hərbi texnika ilə, silah-sursatlarla böyük dərəcədə təmin edə bilək. Çünki o illərdə bizim böyük imkanlarımız yox idi, biz xarici istehsalçılardan asılı vəziyyətdə idik. Bəzən hansısa silahları ala bilirdik, bəzi hallarda ala bilmirdik. Ona görə Müdafiə Sənayesi Nazirliyinin yaradılmasının əsas məqsədi idxaldan asılılığı azaltmaq, yeni iş yerləri yaratmaq və Azərbaycan Silahlı Qüvvələrini müasir texnika və silahlarla təmin etmək idi. Bugünkü nailiyyətlər və reallıq onu göstərir ki, biz məqsədimizə çata bilmişik. Onu da qeyd etməliyəm ki, o vaxt bizim böyük vəsaitimiz də yox idi. Azərbaycan büdcəsinə əsas gəlirlərin əldə olunması 2006-cı ildən sonra başlamışdır, Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verilmişdir. 2005-ci ildə isə bizim maliyyə vəziyyətimiz bir qədər məhdud idi. Buna baxmayaraq, bu məqsədlər, o cümlədən bu nazirliyin formalaşdırılması üçün dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrılmışdır və bu gün nəticələr göz qabağındadır. Azərbaycanda 30-a yaxın hərbi zavod fəaliyyət göstərir və Silahlı Qüvvələrimizin tələbatı böyük dərəcədə ölkəmizdə istehsal edilən hərbi məhsullarla təmin olunur. Bu illər ərzində 1200-dən çox adda hərbi təyinatlı məhsulun istehsalı qaydaya salınıb. Deməli olar ki, bu gün Azərbaycan bu istiqamət üzrə də dünya miqyasında öz layiqli yerini tuta bilibdir. Azərbaycanda güclü hərbi sənaye kompleksi yaradılıb və Şirvan şəhərində bir neçə hərbi müəssisə fəaliyyət göstərir. Təkcə Şirvan şəhərindəki müəssisələrdə 1200 nəfər işlə təmin edilibdir".

**Dövlət başçısı bildirib ki, Şirvan şəhəri Bakıdan sonra Cənubi Qafqaz regionunda hərbi sənaye kompleksi baxımından ikinci yerdədir:** "Bu, Şirvan şəhərinin inkişafına böyük dəstək verir".

"Biz Silahlı Qüvvələr Günü ərəfəsində tam qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan ordusu güclü ordular sırasındadır. Bunu həm biz deyirik, həm Azərbaycan ictimaiyyəti bunu görür və bilir" - deyə, İlham Əliyev bildirib.

**Dövlət başçısı qeyd edib ki, aparıcı reytinq agentlikləri də bunu təsdiqləyir:** "Azərbaycan ordusu 50 ən güclü ordu sırasındadır. Ordu quruculuğu daim diqqət mərkəzindədir. Büdcəmizin ən böyük xərcləri hərbi xərclərdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Son illər ərzində ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülmüşdür. Həm yerli istehsal, həm də xaricdən gətirilən hərbi texnika hesabına biz bu gün təminat baxımından ən yüksək səviyyədəyik. Ən müasir silahlar, texnika, döyüş aparatları, təyyarələr, vertolyotlar, pilotsuz döyüş aparatları, artilleriya qurğuları, zirehli maşınlar, tanklar, toplar, hava hücumuna qarşı ən müasir qurğular, yəni, bütün bunlar bizim hərbi gücümüzü böyük dərəcədə artırmışdır. Növbəti illərdə də bu istiqamətdə ardıcıl iş aparılacaq. Bizim hərbi büdcəmiz kifayət qədər böyükdür. Bu məsələ bizim üçün prioritet məsələdir...

Bununla bərabər, son illər ərzində hərbçilərin xidmət və məişət problemləri də öz həllini tapmışdır... Ordumuzun döyüş qabiliyyəti, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bunu təmas xəttindəki vəziyyət əyani şəkildə təsdiqləyir. Bu gün biz təmas xəttində tam üstünlüyə malikik. Bu üstünlüyü biz əldə etmişik və bunu artırırıq. Bizim döyüş qabiliyyətimizi əks etdirən bir çox hadisələr olub. Onların içərisində keçənilki aprel döyüşləri xüsusi qeyd edilməlidir. Bu döyüşlər nəticəsində Ermənistanın hərbi təcavüzünün qarşısını alarkən bizim hərbçilərimiz böyük qəhrəmanlıq göstərərək işğalçılardan üç rayonun bir hissəsini azad etmişlər. O yerlərdə, o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri nəticəsində bu gün biz köçkünləri öz doğma kəndinə yola salırıq. Cocuq Mərcanlı kəndi cəmi iki ay ərzində bərpa edilib. Onun bərpasının birinci mərhələsi başa çatıb. Əlavə vəsait ayrılıbdır ki, kəndin bərpasının ikinci mərhələsi də başa çatsın".

**Prezident daha sonra qeyd edib:** "Bizim xalqımız heç vaxt bu vəziyyətlə barışmayacaq. Biz heç vaxt icazə verməyəcəyik ki, tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik".

**Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına gəldikdə, Azərbaycan dövlətinin mövqeyi ictimaiyyətə bəllidir:** "Biz bu mövqeyi dəfələrlə ifadə etmişik. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu ola bilməz. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşayıb və bütün toponimlər, bütün tarixi abidələr Azərbaycan tarixini əks etdirir. Dağlıq Qarabağ, eyni zamanda, dünya ictimaiyyəti tərəfindən də Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Bütün aparıcı beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı qərar, qətnamələr qəbul etmişlər ki, Ermənistan silahlı qüvvələri dərhal, qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Lakin Ermənistan buna məhəl qoymur, əməl etmir. Əfsuslar olsun ki, Ermənistana qarşı heç bir ciddi tədbir görülmür. Ermənistana qarşı çoxdan beynəlxalq sanksiyalar tətbiq olunmalı idi. Çünki bu ölkə XXI əsrdə başqa ölkənin ərazisini işğal altında saxlayır, başqa xalqa qarşı soyqırımı törədib, bütün tarixi abidələri dağıdıb. Cocuq Mərcanlının dağılmış mənzərəsi bunun əyani sübutudur. Bizim işğal edilmiş bütün torpaqlarda da eyni vəziyyətdir.

Beynəlxalq hüquqa gəldikdə isə beynəlxalq hüquq tarixi ədalət kimi tamamilə bizim mövqeyimizi gücləndirir. Əlbəttə, öz məqsədimizə çatmaq üçün biz daha da güclü olmalıyıq".



# Dövlətə yük olan iri şirkətlər

## Özəlləşdirmə problemi həll edəcəkmi; Qubad İbadoğlu: "Bu sahəyə xarici investorların cəlb edilməsinin tərəfdarıyam"

**"Azərisriliktəchizat" ASC-nin audit hesabatı ilə bağlı məlumatlar iri dövlət müəssisələrinin büdcəyə nə qədər ziyan vurduğunu bir daha göz önünə səribir. Belə ki, bu qurumun aktivləri 31 dekabr 2016-cı il tarixinə 191 mln. 137,963 min manat təşkil edib ki, bu da 2015-ci illə müqayisədə 0,3% azalıb.**

"APA-Economics" dövlət müəssisəsinin audit hesabatına istinadən xəbər verir ki, aktivlərin 163 mln. 502,519 min manatı uzunmüddətli, 27 mln. 635,444 min manatı isə qısamüddətlidir.

Ötən il ərzində ASC-nin öhdəlikləri 20% artaraq 87 mln. 806,181 min manat təşkil edib. Dövlət şirkətinin qısamüddətli kreditor borcları 86 mln. 430,086 min manat olub ki, bu da illik müqayisədə 20,98% artım deməkdir. "Azəristiliktəchizat" 1 mln. 376,095 min manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,65% çox vergi və sair məcburi ödəniş etməlidir.

"Azəristiliktəchizat"ın nizamnamə kapitalı dəyişməyərək 19,266 mln. manat qalıb. Bu qurumun 201 mln. 348,848 min manat məbləğində kapital ehtiyatı yaradıb. 2016-cı ilin sonuna şirkətin ödənilməmiş zərəri 117 mln. 283,066 min manata çatıb. Qeyd edək ki, ötən il bu rəqəm 96 mln. 466,926 min manat olub.

Göründüyü kimi, iri inhisarçı şirkətlər dövlətə ziyan vurmaqda davam edir. Ekspertlər isə hesab edir ki, bu problemin birbaşa həlli yolu bu qurumları özəlləşdirməkdir. Söhbət əhalini kommunal xidmətlərlə təmin edən "Azərsu", "Azəriqaz", "Azərişıq", "Azəristilik" kimi qurumlardan gedir.

**"Yeni Müsavat"a açıqlamasında mövzu ilə bağlı fikirlərini bölüşən iqtisadçı ekspert Qubad İbadoğlu qeyd etdi ki, yaxın müddətdə adıçəkilən şirkətlərin özəlləşdirilməsi gözlənilir:** "Növbəti il üçün yalnız Beynəlxalq Bankın və Daşkəsən Filizsaflaşdırma Zavodunun özəlləşdirilməsi gözlənilir. İctimai əmtəə və xidmətlərin təklifi ilə məşğul olan şirkətlərin özəlləşdirilməsinə gəlincə, bu proses klassik özəlləşdirmə formasından fərqli olmalıdır. Çünki burada söhbət yalnız dəyərləndirmədən getmir. Burada emal var, satış var, paylama var. Müxtəlif dəyər zəncirləri var. Bunların hər birinə yanaşma fərqli olmalıdır. İndiki halda vacib məsələlərdən biri də paylama və satış şəbəkələrinin özəlləşdirilməsi və ya xarici investora icarəyə verilməsi ola bilər".

**İqtisadçının sözlərinə görə, dövlətin burada hər hansı fiskal marağı ola bilməz:** "Mən düşünmürəm ki, bu, dövlətə əlavə valyuta gətirəcək. Burada hər hansı fiskal məqsəd güdmək doğru olmazdı. Ola bilər ki, həmin xidmətlərin satışından elə də böyük vəsait əldə olunmasın. Həmin şirkəti alan investor öhdəlik götürməlidir ki, yaxın 5 ildə və ya 10 ildə hansı sərmayələr qoyacaq, onun məbləği nə qədər olacaq. Ən vacib məsələlərdən biri budur ki, həmin investor sağlam olsun və götürdüyü investisiya öhdəliyini vaxtında yerinə yetirsin. Çünki həmin şəbəkədə kifayət qədər valyuta yerləşdirməyə ehtiyac var. Eyni zamanda həmin şəbəkədə investor tərəfindən maliyyələşdirmə dövlətin xərclərinin azalmasına və itkilərin aşağı düşməsinə gətirib çıxara bilər. Hökumətin əldə edəcəyi üstünlük bu ola bilər".

**Q.İbadoğlu dövlət müəssisələrinin özəlləşdirilməsindən sonra tarif siyasətinin dəyişəcəyindən narahat olduğunu bildirdi:** "İndiki tarif siyasətinin davam edib-etməyəcəyi məsələsi prosesi bir qədər çətinləşdirir. Burada ən vacib məsələlərdən biri də tarif məsələsidir. Əgər investor gələcəksə, hazırkı tariflərin bir qədər də bahalaşmasını istəyəcək. Mən hesab edirəm ki, bu sosial narazılığa gətirib çıxaracaq. Çünki yeni tarif siyasəti ilə qiymətlər kifayət qədər yüksəkdir. Bu məsələyə kompleks yanaşmaq və qiymət məsələsini də diqqətdə saxlamaq lazımdır. Bizi düşündürən bütün bu məsələlər aydınlaşmalıdır. Əgər danışıqlar qapalı olacaqsa, bu danışıqlarda ictimai məlumatlandırma prosesi olmayacaqsa, o zaman prosesin səmərəliliyi aşağı düşəcək. Mən bu sahəyə xarici investorların cəlb edilməsinin tərəfdarıyam".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 135 (6749) 24 iyun 2017




# Bakıda "Formula" həyəcanı davam edir

## İki ağır qəza baş verdi, Rusiya pilotu yarışı tərk etdi



**Bakıda "Formula-1" üzrə Azərbaycan Qran-prisi üzrə yarışlar davam edir.**

Musavat.com xəbər verir ki, iyunun 23-də saat 15:00-da start götürən Formula-1 yarışmasında növbəti qəza baş verib.

Hindistanı təmsil edən pilot Sergio Perez sərt döngədə manevr edərkən qoruyucu sədlərə çırpılıb. Onun idarə etdiyi "Force İndia" adlı avtomobil yararsız hala düşdüyündən evakuatorla yarış meydançasından kənarlaşdırılıb. Hadisə zamanı pilot xəsarət almayıb.

Musavat.com xəbər verir ki, saat 15:30-da start götürən Formula-2 yarışmasında da qəza baş verib.

Belə ki, Rusiyanı təmsil edən "Russian Time" komandasının pilotu Luca GHİOTTO Filormoniya bağı istiqamətində yüksək sürət zolağının birinci döngəsində idarəetməni itirərək, beton sədlərə çırpılıb, ön təkərlər tamamilə sıradan çıxdığından yarışmanı tərk edib.

Bugünkü yarışların Formula-1 iştirakçıları üçün çətin mübarizə şəraitində keçəcəyi gözlənilir.

Şənbə və bazar hər bir yarış üçün əsas günlərdir.

İyunun 25-də "Formula-2"də ikinci yarış təşkil olunacaq. Ardınca əsas mübarizəyə hazırlıq başlayacaq. Pilotların paradı, Grid təqdimatı olacaq və Azərbaycan himni səslənəcək. Saat 17:00-da Qran-prinin startı veriləcək. Təxminən 2 saatlıq yarışın ardınca mərhələ qaliblərinin mükafatlandırılması və Meraya Kerinin konserti nəzərdə tutulub.

Bu mərhələyə də əvvəlki yarış kimi 10 komandanın heyətində 20 pilot qatılacaq. Ölkəmizdə "Mercedes"in heyətində Luis Hamilton, Valterri Bottas, "Ferrari"nin heyətində Sebastyan Fettel, Kimi Raykkonen, "Red Bull"un heyətində Daniel Rikkardo, Maks Ferstappen, "Force İndia"nın heyətində Serxio Peres, Esteban Okon, "Toro Rosso"nun heyətində Daniel Kvyat, Karlos Sayns, "Willams"ın heyətində Felipe Massa, Lens Stroll, "Renault"un heyətində Niko Hülkenberq, Colion Palmer, "Haas"ın heyətində Roman Qrojan, Kevin Maqnussen, "Sauber"in heyətində Markus Eriksson, Paskal Verlyayn, "McLaren Honda"nın heyətində Fernando Alonso və Stoffel Vandorn sürətini yoxlayacaq.

Yarışın start və finiş xətti Azadlıq meydanında olacaq. Bolidlər burdan başlayaraq Qız qalası, İçərişəhər və "Azneft" dairəsindən keçməklə saat əqrəbinin əksi istiqamətində umumilikdə 51 dövrə vuracaqlar.

❑ **Məğrur MƏRD**
❑ **Məhəmməd TÜRKMƏN**





# Azərbaycan dünya mediasının manşetində

## ""Formula 1" yarışlarının Azərbaycanda keçirilməsi ölkəmiz üçün yaxşı təbliğat imkanı yaradır" - ekspert

**Hazırda ölkəmizdə "Formula 1" yarışları start götürüb. Bu səbəblə dünyanın gözü Bakıya yönəlib. Ən nüfuzlu beynəlxalq telekanalların, qəzet və saytların manşetində Azərbaycanda keçirilən ralli yarışlarından bəhs olunur. Bir neçə beynəlxalq telekanal yarışları canlı olaraq yayımlayır.**

Demək olar ki, bütün xarici xəbər saytlarında Azərbaycanla bağlı materiallar yer alıb. Təbii ki, bu, ölkəmizin beynəlxalq imicinin formalaşması, turizm potensialının tanınması baxımından əvəzolunmaz fürsətdir. Lakin yarışların bu dərəcədə beynəlxalq reaksiya doğurması insanlarda belə bir sual yaradıb ki, xarici xəbər mənbələrində gedən materiallar Azərbaycan tərəfinin sponsorluğu ilə dərc olunub, yoxsa sadəcə, "Formula 1"ə olan maraqdan irəli gəlir?

Bu sualı cavablandıran media ekspertləri hər iki faktorun rol oynaya biləcəyini qeyd etdilər.

**Media eksperti Zeynal Məmmədli də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, "Formula 1" yarışları dünyada ən çox azarkeşi olan yarışlardan biridir:** "Mən dünya mətbuatından bu yarışlarla bağlı çoxlu məlumatlar oxumuşam. Bu çox reytinqli bir yarışdır, dünya çempionatı ilə müqayisə oluna bilər. Bu yarışların auditoriyası həddindən artıq böyükdür. Ona görə də həmin yarışların reklam kampaniyasına qatılması, mediada bununla bağlı materialların çıxması media qurumlarına reklam verənlərin də marağındadır. Çünki materiallar daha çox auditoriyanın diqqətini cəlb edir və maraqla qarşılanır. Eyni zamanda burada ikinci faktoru da inkar etmək olmaz ki, Azərbaycan hökuməti də ölkəni tanıtmaq üçün təşkilatçılığı öz boynuna götürüb və bu fürsətdən yararlanmaq istəyir. Sözsüz, rəqəmlər açıqlanmır. Ancaq yarışlar bitdikdən sonra çəkilən xərclərin müəyyən qisminin reklama yönəldiyini də ehtimal etmək olar. Bu, həm Azərbaycan üçün əlverişlidir, həm də yarışların təşkilatçıları, beynəlxalq media qurumları və onlara reklam verənlər üçün əlverişlidir".

"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev də "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, tədbirin Azərbaycanda keçirilməsi faktı öz-özlüyündə böyük hadisədir: ""Formula 1" həm maraq baxımından, həm də maliyyə baxımdan dünyanın diqqət mərkəzində olan idman yarışlarından biridir. Hətta hazırda "Formula 1"in özünün ilkin ideyasını nə dərəcədə daşıması barədə müzakirə gedir. Onun həddindən artıq yüksək büdcəsi və həddindən artıq olan təmtərağını azaltmaq məsələsi də müzakirə olunur. Bu onu göstərir ki, "Formula 1" çox böyük tədbirdir və dünyanın buna marağı təbiidir. Mən deyə bilmərəm ki, əlavə hansı cəhdlər göstərilir və ya hansı media qurumlarına pul verilir. Ancaq bütövlükdə onu deyə bilərəm ki, "Formula 1"ə dünya mediasının marağı həm həddindən artıq zəngin bir tədbir olduğu üçün, həm də maraqlı bir idman yarışı olduğu üçün təbiidir. Azərbaycanın bu məsələ ilə əlaqədar adının hallanması yaxşı əlamətdir. Ancaq mən bu cür çox bahalı və zəngin tədbirlərin keçirilməsi ilə ölkənin tanıdılmasına nail olunacaq - tezisini düzgün hesab etmirəm. Çünki bunun üçün ardıcıl və fərqli tədbirlər həyata keçirmək lazımdır. Elə ölkələr var ki, heç "Formula 1" yarışlarını keçirməyiblər, ancaq pasportları sərhəd-gömrük məntəqələrində bizdən yaxşı tanınır. Bu yarışlar müəyyən müsbət təsir göstərə bilər. Ancaq mən düşünürəm ki, indiki mərhələdə bu yarışlara yatırılan pullara və çəkilən xərclərə daha böyük işlər görmək olardı".

**Media eksperti Qulu Məhərrəmli isə "Yeni Müsavat"a dedı ki, "Formula 1" yarışlarının Azərbaycanda keçirilməsi ölkəmiz üçün yaxşı təbliğat imkanı yaradır:** "Bu həm də PR-dır. Burada həm Azərbaycan hökumətinin öz fəaliyyəti var. Həm də "Formula 1" yarışlarının təşkilatçılarının beynəlxalq təşkilat olaraq özlərinin PR kompaniyaları var. Hər iki tərəfin maraqları üst-üstə düşəndə, əlbəttə, müəyyən bir miqyas yaranır. Ona görə də buna müsbət bir hal kimi baxmaq olar. Mən bir neçə il öncə Vyanada idim və o zaman Azərbaycanda beynəlxalq bir idman yarışı keçirilirdi. İnsan üçün çox xoş olur ki, sənin ölkə haqqında məlumatlar verilir, canlı translyasiyalar olur. Burada həm "Formula 1" təşkilatçılarının çalışması var, həm də Azərbaycan tərəfinin. Yarışlar başlamazdan öncə də media ilə bağlı iş gedirdi, PR aparılırdı, reklam rolikləri çəkilirdi. Təbii ki, Azərbaycan bu yarışlara ev sahibliyi etdiyi üçün ölkəmizin də adı çəkilir. Düzdür, bizdə vətəndaşlar nəqliyyat və sairlə bağlı problem yaşayırlar, narazılıq edirlər. Ancaq onu da nəzərə almaq lazımdır ki, bunun ölkəmiz üçün təbliğat effekti çoxdur. Xarici telekanalların Azərbaycandakı yarışları işıqlandırması kompleks şəkildə həll olunur. Çünki tədbir təkcə Azərbaycanın tədbiri deyil, beynəlxalq təşkilatın tədbiridir. O baxımdan da PR işini həmin beynəlxalq təşkilat aparır. Azərbaycanın bunun üçün harasa pul ödəməsi ağlabatan deyil. Amma ola bilər ki, Azərbaycanın PR təşkilatları da bu prosesə qoşula bilər, müəyyən PR texnologiyaların hazırlanmasında iştirak edə bilər".

❑ **Nərgiz LİFTİYEVA**



Bu gün Azərbaycan milli azadlıq hərəkatının lideri, Azərbaycanın sabiq prezidentlərindən biri olmuş Əbülfəz Elçibəyin doğum günüdür.

# Bu gün Əbülfəz Elçibəyin doğum günüdür

## Eks prezidentin ətrafında olanlar onunla bağlı maraqlı xatirələrini danışdılar...

Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) 1938-ci il iyunun 24-də Ordubad rayonunun Kələki kəndində anadan olub. Bu gün münasibətilə Elçibəyin silahdaşlarından onun barəsində xatirələrini öyrəndik.

**Yazıçı-publisist Mehriban Vəzir "Yeni Müsavat"a bildirdi ki, Məhəmməd Əmin Rəsulzadə və Elçibəy eyni yolun yolçuları olublar:** "Həmçinin onların mövcudluğu da təkcə 20-ci əsrə deyil, bundan sonra gələcək bütün illərə, əsrlərə aiddir. Çünki hər ikisi Azərbaycan xalqı üçün elə bir təfəkkür forması təqdim ediblər ki, bu, dünyada durduqca var olacaq və demokratiyanı sevən, cümhuriyyətçi insanlar bu yolla gedəcəklər. Biz Elçibəyə münasibətdə olan tənqidi fikirləri də normal qəbul edirik. Çünki Elçibəyin şəxsən özü ilə savaş getmir. Bu savaş sistemlərin savaşıdır. Azərbaycanda hələ də tam olaraq sıradan çıxarılması mümkün olmayan işğal sisteminin davası var. Elçibəy azadlıq simvoludur, qarşı tərəf isə Azərbaycanın səadətini quduz imperiyaların tərkibində olmaqda görənlərdir. Ona görə də bu, normal prosesdir. Bu dava Azərbaycanda köləlik siyasətini müdafiə edən sonuncu insanın qalmasına qədər gedəcək. Əlbəttə ki, bu insanlar özlərini kölə siyasətinin nümayəndəsi hesab etmirlər. Çünki insanın özünü görməsi çətindir. Elçibəy fəlsəfəsi, dünyagörüşü demokratik ideyaları daim mövcud olub, yaşayacaq. O, bənzərsiz bir şəxsiyyət, əvəzsiz liderdir. Onun da liderliyi Azərbaycan xalqı və ideyası ilə bağlı olduğu üçün daima davam edəcək".

**AXC iqtidarı dönəmində Əbülfəz Elçibəyin mətbuat katibi olmuş tanınmış media eksperti Arif Əliyev "Yeni Müsavat"a bildirib ki, iyunun 24-də həm də Elçibəyin çox sevdiyi Nəcəf Nəcəfovun ad günüdür:**

"Hər ikisi faktiki olaraq sonuncu ad günlərindən birini birlikdə keçirdilər. Ən çox yadımda qalan da həmin ad günü mərasimi oldu. Həmin zaman Nəcəfin vəziyyəti ağır idi, ancaq buna baxmayaraq çox şən məclis oldu. Hər ikisi həyatdan çox tez getdi. Bəlkə də onların gördükləri işə, fəaliyyətə görə həyatları hələ yeni başlayırdı. Çox tez getsələr də hər ikisi çox işıqlı anlarla yadda qalıblar. Güman edirəm ki, Əbülfəz Elçibəy sağ olsaydı, ölkə müxalifətinin vəziyyəti indiki kimi olmazdı. Çünki o, özlüyündə böyük bir impuls idi. Sağ olsaydı, müxalifət partiya səviyyəsində olmasa da, hərəkat səviyyəsində daha canlı olardı. Çünki Elçibəyin özü də hərəkata meylli adam idi və fəaliyyətinin son dövründə də gənclərlə daha çox işləyirdi. Bu baxımdan, hesab edirəm ki, sağ olsaydı, bu gün siyasi həyat daha qaynar olardı".

**Əbülfəz Elçibəyin köməkçisi olmuş Oqtay Qasımov onunla bağlı bir sıra maraqlı məqamlara toxundu. O bildirdi ki, Elçibəy ad günlərini keçirməyə xüsusi həvəsli olmayıb:**

"Onun ad günü iki dəfə tədbir formasında keçirilib. Bunlardan biri 1996-cı ildə Kələkidə baş tutdu. Özü istəməsə də Bakıdan xeyli adam getmişdi, qonaqlar çox olduğu üçün tədbir təşkil olundu. Növbəti ad günü isə 1999-cu ildə Əbülfəz bəy Kələkidən qayıdandan sonra Bakıda keçirildi".

**O.Qasımov ən çox müzakirə edilən Elçibəyin hakimiyyəti qoyub, Kələkiyə getməsi məsələsi barədə də danışıb:**

"Artıq Əbülfəz Elçibəyin Kələkiyə getməsi ilə bağlı məsələlər tarixə çevrilib. İndi bu haqda deyilən fikirlərin də hamısı ehtimalların, fərziyyələrin üzərində qurulub. Söylənən fikirlər heç o dövrü də tam olaraq əks etdirmir. Çünki faktiki olaraq həmin zaman hakimiyyəti qorumaq mümkün deyildi. Söhbət ondan gedir ki, Əbülfəz Elçibəyə sadiq olan qüvvələrin və o qüvvələrə rəhbərlik edən şəxslərin mühüm bir qismi qiyamçıların əlində idi. Təhlükəsizlik nazirinin birinci müavini Sülhəddin Əkbər, bələdiyyə polisinin birinci müavini Mehdi Mehdiyev qiyamçıların əlində idi, qvardiyanın komandanı Tahir Məmmədov şəhid olmuşdu və sairə. Yəni belə bir vəziyyətdə sadiq olan komandirlərin böyük bir qismi artıq qarşı tərəfin əlində idi. Qalan hissənin bir qismi başsız idi, güc strukturlarının da içərisində əhəmiyyətli bir hissə prezidentə qarşı çıxıb, qiyamçıların tərəfində idi. Belə olan təqdirdə hakimiyyəti necə saxlamaq olardı? Bu barədə çox şey danışsalar da, reallığı nəzərə almırlar. O dövrdə baş verənlərin ardıcıllığı, görünür, yaddan çıxıb. Ona görə də bu məsələlərin müzakirə edilməsini çox da vacib hesab etmirəm. Artıq bu, tarixi bir hadisədir və baş verib. Biz də azərbaycanlı olaraq bunun nəticələrini yaşayırıq. Söhbət ondan gedir ki, biz bilmirik ki, Elçibəy Bakını tərk etməsəydi nə olacaqdı. Bunu qəti şəkildə və birmənalı demək çətindir. Yaxud da Gəncə qiyamı hansısa formada yatırılardısa, ondan sonra hadisələr necə inkişaf edəcəkdi? Bunu da deyə bilmərik. O dövrdə Rusiya birmənalı şəkildə Elçibəyin hakimiyyətinin devrilməsi xəttini həyata keçirirdi və bunun üçün də bütün variantlara getməyə hazır idi. Açıq şəkildə dövlət nümayəndələrinə bu məsələni bildirmişdilər. Məsələ burasındadır ki, qiyamın arxasında olan, onu dəstəkləyən yalnız Rusiya deyil, həm də İranın, ruslaların maşası kimi Ermənistanın, eləcə də Qərbin əli vardı. Bütün bunlar onu deməyə əsas verir ki, o dövrdə vəziyyət çox qəliz idi".

**O.Qasımov silahdaşlarının bu gün Elçibəy dəyərlərinə qarşı münasibətindən də danışıb:**

"Onların münasibətlərini normal sayıram. Gəncə qiyamından hakimiyyət olaraq çıxa bilməməyimizin günahı təkcə Əbülfəz Elçibəyin məsuliyyəti məsələsi deyildi. Təbii ki, o, komandanın lideri kimi birinci məsuliyyət daşıyan şəxs idi. Ancaq komandanın üzvü olan hər bir şəxs təbii ki, məsuliyyət daşıyıcısıdır. O baxımdan, bu gün Əbülfəz bəyə silahdaşlarının münasibəti kifayət qədər yaxşıdır. Sevindirici haldır ki, bu fikirlər daha çox gənc nəslin arasında yayğındır".

❑ Əli RAİS

# Ev yıxan eqolar



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Mənzil bazarının durumu ilə bağlı araşdırma zamanı bu faktı öyrənməsəydim... yəqin ki, bu yazını da yazmayacaqdım. Saysız-hesabsız ev firmaları, maklerlərlə ünsiyyətdə olandan sonra məlum oldu ki, yurdum insanının öz evini satmasının 70 faiz səbəbi gəlin-qayınana problemi imiş. Bəli, ailələr bəh-bəhlə evə gəlin gətirirlər, "oğlum gözümün qabağından getməsin, birgə yaşayaq" deyirlər, bir müddət sonra isə iki əl, bir baş qalırlar. Məlum olur ki, iki qoçun başı bir qazanda qaynamaz, el elə sığar, amma ev evə sığmazmış... və sair və ilaxır.**

Bu problemlə bağlı kimi dindirsən, hərə məsələyə öz prizmasından baxıb təhlil edəcək. Məsələn, yaşlı qadındırsa, qayınananı, cavan insandırsa, gəlini müdafiə edəcək. Empati quraraq mövqe sərgiləyəcəklər. Amma tərəflərin neçə faiz haqlı olmasına baxmayaraq, bu məsələdə dəyişməyən bir həqiqət var: azərbaycanlı qadınlar bir çox hallarda özləri boyda hikkə dağarcığı olurlar. Yaşlısı da, cavanı da. Başlayaq böyüklərdən. Ana oğlunu evləndirən gündən, yox, evləndirməyə qərar verən gündən bir eqo savaşına girir. Sanki qarşısına bir məqsəd qoyur: ya gəlinə verən Allah, ya mənə. Qarşı tərəfi əzmə, sındırma əməliyyatları, ram etmə planları. Dediyim kimi, bir müharibə meydanını xatırladır bu münasibətlər.

Bu da anlaşılandır. Hər bir Azərbaycan qadınının içində bir qayınana travması var. Zamanında onu da əzib, incidiblər. Qayınata ayağı yuyub məsələn. Ya da hamilə vaxtı səhər 5-də oyanıb, qayınanasına səhər yeməyi hazırlayıb, işə yola salıb. Dörd uşağı təkbaşına böyüdüb, qayınanası kömək etməyib, o vaxt pampers, "smes" də yox imiş və sair və ilaxır. Dediyim kimi, hərənin bir "ağlamalı" hekayəsi var. Zamanında onu əzən qayınana artıq həyatda yoxdu. Amma o da taledən intiqamını hansısa formada almaq istəyir. Bəli, "boks yastığı" tapılmışdır - gəlin.

Öncə start verir uğursuz, dəxlisiz müqayisələrə. "Bizim vaxtımızda pampers yox idi"dən başlanan mənasız başaqaxmalar "indiki gəlinlər telefondan başını çıxarmır"da bitir. Biz ölməz "Qayınana"dakı Nəsibə Zeynalovanın yaratdığı obraza güldüyümüz halda, indikilər çox vaxt o obrazı da kölgədə qoyur. Və beləcə başlanır, xoruz davasına bənzər didişmələr. Məsələyə qayınatanı qarışdırırlar, oğlu abırdan salırlar. Bir qoz qabığının içini doldurmayacaq qədər kiçik problemləri şişirdib-şişirdib, bir ailənin düzənini, ağzının dadını pozurlar. Heç kəsə yaşamağa, bir tikə çörəyi şirinliklə yeməyə imkan vermirlər.

Elə bilirsiz, hər şey birtərəfli olur? Gəlinlərin hikkəsi, eqosu da imkan vermir ailələr rahatlıq içində olsunlar. Qayınana ilk gündən necə gəlini sındırıb, öz qayda-qanunlarını yetirməyə çalışırsa, gəlin də eyni qaydada ilk gündən öz izini evə qoymağa cəhd edir. "Mən bir addım geri çəkilsəm üstümə gələcəklər" məntiqi ilə kəllə-kəlləyə gəlir. Kim daha çox çirkinləşə bilər yarışı başlanır az sonra. Bu dava-dalaşın səbəbi təkcə savad faktoru ilə bağlı deyil. Mən nə qədər magistr, elmlər namizədi, ziyalı qadın tanıyıram ki, evini müharibə meydanına döndərib. Bu yaxınlarda saytımızda da bir xəbər oxudum. Adam Fransada ali təhsil alıb gəlib, Bakıda bir nəfəri sırf söyüş söydüyünə görə vurub öldürüb. Özünün də həyatını qaraldıb, başqa birinin yaşamına da bais olub. Məhkəmədə də deyib ki, "söyüşü heç atama da bağışlamaram". İndi o 6 illik Fransa təhsilinə, o auditoriyalarda verilən həyat dərsinə təəssüf edəsən, ya məhv olan iki gəncin həyatına?

Bəli, gəlinlər də empati qurmağı bacarmır. Halbuki gözünü yumsa və bir anlıq oğlunu evləndirdiyini, gəlininin də onunla eyni cür davrandığını düşünsə, əli-qolu, eləcə də dili soyuyar. Amma etmir. Özünü cəngavər, yaşadığı evi də bir müharibə meydanı bilir. Və nəticədə... Sizcə, son illər sayı astronomik həddə çatan boşanmalar havadan yaranır? Baxırsan ki, çoxunun arxasında çömçə-pampers dığ-dığı dayanır. Nə böyük susmağı bacarır, nə də kiçik. Baxmayaraq ki, biz xalq olaraq susmağı sevirik. Amma məişət davalarında dilimizin ayarı yoxdur.

Ailələr cəmiyyətin güzgüsüdür. Evimizin içində necəyiksə, cəmiyyətdə də o cürük. O gün türkiyəli bir psixoloqun müsahibəsini oxudum. Deyir ki, restoranda ofisiantla, evində anası ilə kobud danışan kişi görən kimi ondan yüz metr aralı durun. Çünki hər iki persona onun iç üzünü açır. Anası onun daxili, ofisiant isə xarici dünyasını göstərir...

Ölkədə şərtlər onsuz da ağırdır. Və düşünün ki, bu şərtləri evlərdəki qadın hikkəsi daha da ağırlaşdırır.

YENİ MÜSAVAT
N 135 (6749) 24 iyun 2017

**Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Hacıbala Abutalıbovun kreslosu yavaş-yavaş laxlayır. İllərdir Bakıya başçılıq edən Abutalıbovun nəzarət etdiyi sahələr bir-bir əlindən çıxır. Doğrudur, dəfələrlə onun vəzifədən azad ediləcəyi ilə bağlı mətbuatda yazılar dərc olunub. Ancaq bu dəfə vəziyyət başqadır və Dövlət Reklam Agentliyinin yaradılması ilə reklam sahəsindən gələn milyonların Abutalıbovun kurasiyasından çıxması da bunun göstəricisidir.**

# Abutalıbovdan sonra gələn nəyi və necə dəyişəcək?

## Ekspert: "Təkcə merin dəyişməsi ilə vəziyyəti düzəltmək mümkün deyil"

Lakin bir məsələ də var ki, Abutalıbovun yerinə vəzifəyə təyin ediləcək şəxs merin illərdir dolaşığa saldığı məsələləri necə həll edəcək?

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan ekspert Fərhad Mehdiyev bildirib ki, təkcə Hacıbala Abutalıbovun dəyişməsi ilə vəziyyəti düzəltmək mümkün deyil:** "Əslində ilk növbədə digər icra başçıları dəyişdirilməlidir. Çünki Abutalıbov Bakı şəhərində bütün məsələləri həll edən tək şəxs deyil. Bir çox rayonlar var ki, ora heç də yaxşı idarə olunmur. Baxırsan ki, yaşayış kvartalından əsas yola çıxmaq üçün cəmi bir dar yol qoyulur. Qalan hər yer satılır və hündürmərtəbəli binalar tikilir. Bu səhvdən gələcək nəsillər də çox böyük əziyyət çəkəcəklər. İcra hakimiyyətində memarlıq şöbəsi var və onların da bu məsələdə rolu böyükdü. Ancaq bütün hallarda icra başçısı da ona təqdim olunan işlərə baxır, öz tapşırıqlarını verir. Ona görə də ilk növbədə bu insanın menecment sahəsində ən azı nəzəri bilikləri olmalıdır. Hacıbala Abutalıbovun fəaliyyətinə diqqət etdikdə, onun bu biliklərdən məhrum olduğunu görmüş oların. İkinci bir məsələ isə ictimai xidmətlərin təqdim edilməsidir. Halbuki şəhər icra hakimiyyətlərinin gördüyü əsas funksiya məhz budur. Bunun təmin edilməsində öndə gələn meyarlardan biri effektivlikdir. Effektivlik dedikdə, verilən xidmətin mümkün olduğu qədər sərfəli qiymətlə, ən əlverişli keyfiyyətlə verilməsidir. Biz demirik ki, çox ucuz və keyfiyyətsiz olsun. Xeyr, keyfiyyət dünya standartına uyğun olmalı, qiyməti isə çox baha başa gəlməməlidir. Bunu təmin etmək üçün isə bir sıra yollardan istifadə edilir. Birincisi, ictimai xidmətin verilməsində dövlət özü rol almamalıdır. Yəni dövlət həmin xidməti özü təqdim etməməlidir. Ona görə ki, dövlət hər zaman bir xidməti baha və keyfiyyətsiz verir. Çünki rəqabət yoxdur. Halbuki müəyyən xidmətin verilməsini bazara açanda siz bunu tenderlə verirsiniz. İnsanlar da pul qazanmaq üçün rəqabətə uyğun olaraq həmin xidməti daha ucuz və keyfiyyətli verməyə hazır olur. Bütün müasir dünyada bu sistem belə təqdim olunur. Bəzi xidmətlər var ki, dövlət onları strateji xidmətlər olması səbəbindən özü verməyə məcbur qalır. Məsələn, su tədarükünü dövlət özü verməlidir. Ona görə ki, xüsusi tədarükçü bunu baha verir. Dövlət bunu özü verəndə çalışmalıdır ki, bazarda olan xüsusi sektoru da bu işə qatsın".



**Ekspert bildirib ki, Abutalıbov dönəmində bütün bunların heç birini Bakıda görməmişik və görmürük:** "Mərhum prezident Heydər Əliyevin zamanında yollar asfaltlanan zaman bunu "Azəryolservis" (hazırkı "Azəravtoyol" ASC) etmirdi. Bunu hansısa kompaniya edirdi və onlar da üzərlərinə konkret müddətlik zəmanət götürürdülər ki, yol xarab olarsa, özləri düzəldəcəklər. Bu gün ən əsas məsələ yol təmiri məsələsidir. Yolları da neçəyə düzəldirlərsə, bu da şəffaf deyil. Ona görə də əgər şəhər meri, rayon icra başçısı dəyişdiriləcəksə, mütləq bu vəzifəyə müvafiq ixtisasartırma kursundan keçmiş insanlar gətirilməlidir. Yaxud da dəyişmirlərsə, o zaman bu adamları işlədikləri müddətdə müvafiq kurslara göndərmək lazımdır. Onlar öyrənsinlər ki, ictimai xidmətlər necə verilməlidir ki, yüksək effektivlik əldə oluna bilsin. Almaniyadan bir mütəxəssis gətirsinlər, pilot layihə kimi bəzi yerlərdə onları maaşla işlətsinlər. Görmək lazımdır ki, bu adamlar həmin rayonda nələr edirlər. Əgər yaxşı bir təcrübə olsa, həmin mütəxəssisləri gətirib, başqa şəhərlərdə də işlətmək lazımdır ki, yaranmış düyünləri çözsünlər".

**Ekspert mer seçkiləri məsələsinə də toxunub:**

"Mer seçilməsi məsələsi demokratik yanaşmadan doğur. Demokratik yanaşma bunu tələb edir ki, xalqa xidmət edən orqanlar mümkün olduğu qədər seçki ilə gəlsinlər. Ona görə "mümkün olduğu qədər" ifadəsini işlətdim ki, bəzən bu, mümkün olmur. Məsələn, hakim də əslində ədalət mühakiməsi xidmətini təmin edən bir şəxsdir. Ancaq bir çox ölkələrdə hakimləri xalq seçmir. Çünki onların peşədə yetişməsi və sairə kimi məqamlar var. Amerikada isə bəzi əyalətlərdə hətta hakim də seçilir. Merə gəldikdə isə bir çox yerlərdə merlər həqiqətən də seçilir. Prezidentimiz də deyib ki, məmurların vəzifəsi xalqa xidmət etməkdir. Yəni dövlətin icrasında mərkəzdə yer alan obyekt xalqın razılığı, rifahıdır. Kim kimin qarşısında məsuliyyət daşıyırsa, onun gözünə girməyə çalışır. Əgər mən təyinatla vəzifəyə gəlirəmsə, məni təyin edənin gözünə girməyə çalışıb, onun üçün işləyirəm. Lakin məni xalq seçirsə, seçki zamanında xalqa vədlər verirəm, növbəti dəfə seçilmək üçün də bu vədlərin hamısını yerinə yetirib, xalqa xoş gələn başqa təklifləri verirəm. Məsələn, hazırda Novxanıda ana yol bağlıdır, müəyyən qədər getməyə məcbur olduğumuz ara yollar isə çox bərbad vəziyyətdədir. Ağlabatan dərəcədə alternativ yol bəlli deyil və yoldakı təmirin nə zaman bitəcəyi də bilinmir. Halbuki Binəqədinin icra başçısı seçilsəydi, xalqın qarşısında məsuliyyət hiss etsəydi, bunlara diqqət edərdi. Çünki bunlar baş verdiyi təqdirdə xalq ikinci dəfə o adamı seçməyəcəkdi. Bax, əsas məsələ budur".

❑ **Əli RAİS**

# Ənənəvi müxalifətə və liderlərə "dövrünüz bitib" mesajı

## "Belə müxalifət istənilən hakimiyyətə sərf edir"

**Ümid Partiyasının sədri İqbal Ağazadə "Yeni Müsavat"a müsahibəsində deyib ki, Azərbaycan müxalifəti uzun illərdir ki, nəticəsizlik sindromundan əziyyət çəkir. Azərbaycan müxalifəti liderlərin eqolarının qurbanına çevrilən bir proses yaşayır. Onun sözlərinə görə, Azərbaycan iqtidarı uzun müddət elə bir siyasət aparıb ki, xalq siyasətə qarışmasın.**



Əli Əliyev



Tural Abbaslı

Azərbaycanda hətta bizim ən yaxşı hesab etdiyimiz gənclər belə, valideynlərinin məsləhəti ilə universitetlərdən tutmuş iş yerlərinə qədər bu proseslərə qarışmırlar. Çünki onun arxasında güvənli dönəm, həyat dayanmır: "Onun arxasında həbs də, repressiya da, sonda mühacirət də ola bilər. İnsanlar buna görə sığortalanır. Hakimiyyət maraqlı idi ki, siyasətdə iki qrup olsun: hakimiyyət və müxalifət qrupu. Və bu qrupların içərisində mübarizədə hakimiyyət rahat udur. Çünki resurslarına, imkanlarına görə müxalifət qrupu hakimiyyət qrupundan qat-qat zəifdir. Amma ikinci məqam budur ki, Azərbaycan müxalifəti uzun illərdir ki, nəticəsizlik sindromundan əziyyət çəkir.

Azərbaycan müxalifəti bütün postsovet ölkələrinin müxalifətindən fərqli olaraq köhnə müxalifətdir. Bugünkü müxalifət qalmış olsaydı, əslində müxalifət iki hissəyə ayrılmalı idi: 1.Ənənəvi olaraq 88-92-ci il proseslərində iştirak edənlər. Onların dəyərləri, mübarizə metodları, hakimiyyətdə, bölgülərdə iştirakı olan qruplar; 2. Yeni qüvvələr. Hətta biz Azərbaycanda bu təsnifata da rast gələ bilmədik. Azərbaycanda müxalifətin birliyinə də rast gələ bilmədik ki, bu da bədbəxtçilikdən idi. Azərbaycan müxalifəti liderlərin eqolarının qurbanına çevrilən bir proses yaşayır. Bu da bir müddətdən sonra keçib gedəcək".

**İqbal Ağazadənin müxalifət haqda dediklərini müxalifətçilər bölüşürmü?**

AXP sədri Pənah Hüseyn İqbal Ağazadənin bu fikirlərinə şərh vermək istəmədiyini dedi.

**VİP sədri Əli Əliyev isə bildirdi ki, Azərbaycan siyasətinin real durumu ayrıca bir faktordan asılı deyil. Mənzərəni müəyyən edən çoxsaylı və çoxcəhətli amillər kompleksidir. Burada həm daxili, həm xarici amillər, obyektiv və subyektiv səbəblər, iqtisadi, hərbi, maliyyə, siyasi, dini və bir çox başqa səbəblər var:** "Heydər Əliyev bu mürəkkəb faktorlardan, o cümlədən beynəlxalq konyukturadan, neft ehtiyatlarından, milli psixologiyadan, müharibənin çətinliklərdən, siyasi seqmentin ziddiyyətlərindən və sairdən qrossmeystersayağı istifadə edə bildi. Hakimiyyət opponentlərinin bugünkü durumunda əlbəttə ki, siyasi müxalifət liderlərinin subyektiv qüsurları da xüsusi yer tutmaqdadır. Cəmiyyətin etimadını bu və yaxud digər formada "göyə üfürən", satan, şəxsi məqsədləri üçün istifadə edən belələri yaranmış vəziyyətin müəllifləri hesab edilə bilərlər. "İctimai rəyi biz formalaşdırırıq" deyib hakimiyyətlə işbirliyində olmuş şəxslərin yanlışlarıdır ki, cəmiyyət siyasətə bütövlükdə inamsızlıq nümayiş etdirir.

Bir tərəfdən də siyasətçilər qədim dövrün qladiatorları, ya da Stalin epoxasının dissidentləri və xalq düşmənləri vəziyyətinə salınıb. Belə durumda sıravi vətəndaşların siyasi proseslərdən ehtiyatlanması fəaliyyətsizliyin əsas səbəblərindəndir. İzafi neft pulları da siyasi tabana ziyanlı təsirini göstərmiş oldu. İnsanlar mənəvi dəyərlərdən yayınıb gündəlik həyata, parıltılı aldadıcı güzərana aludə oldu. Amma qarşıda gələn dövrə nikbin baxmağın tərəfdarıyam. Əgər müxalifətin subyektiv yanlışları olmasa, qarşıda gələn dövr obyektiv olaraq dəyişiklikləri şərtləndirə bilər. Nikbin olmaq, qarşıda gələn dönəmi düzgün dəyərləndirmək və gərəkənləri etmək lazımdır".

**AĞ Partiyanın sədri Tural Abbaslı da bildirdi ki, İ.Ağazadənin fikirlərində kifayət qədər həqiqət payı var. Gələn il artıq 25 il olacaq ki, YAP hakimiyyətdədir və dövlətin idarəsini tam əlində saxlayırlar. Bu illər ərzində müxalifət hakimiyyətə heç bir sahədə təsir etmək imkanına da malik olmayıb. Tam əksinə, müxalifətə keçdikləri zaman əllərində olan bütün resurslarını da əldən verdilər:** "Düşünürəm ki, əldən verdikləri ən önəmli resurs və təsir vasitəsi xalqın etimadı, dəstəyidir. Çünki müxalifət əsasən xalqına və onun dəstəyinə güvənməlidir, bizdə isə uzun illər xalq faktorunu nə hakimiyyət, nə də müxalifət nəzərə almayıb. Bunun acı nəticələrini də hazırda görməkdəyik. Bəli, o da acı həqiqətdir ki, uzun illər özlərini müxalifət düşərgəsinin liderləri elan edənlər bir çox hallarda şəxsi eqo və mənafelərindən güzəştə gedə bilmədikləri üçün uğursuzluq davam edib. Fikir versəniz görərsiniz ki, bunlar arasında hələ də 92-93-cü illərin ədavəti və intriqası eyni şiddətlə davam edir, hətta daha kəskinləşib deyə bilərik. Heç kimə sirr deyil ki, Azərbaycan üçün dönüş nöqtəsi ola biləcək anlarda belə, bu liderlərin şəxsi mənafelərindən keçə bilmədikləri üçün o şanslar itirilmiş olub. Deyə bilərəm ki, belə bir müxalifət istənilən hakimiyyətə sərf edir. Odur ki, müxalifətdə bir çox şeylərin dəyişmədən qalmasında hakimiyyətin də təsiri və müdaxiləsi danılmazdır".

**T.Abbaslının fikrincə, cəmiyyət artıq yeni yanaşma, fərqli simalar və ən əsası nəticə tələb edir. Bunu təmin edə bilməyəcək siyasi qüvvələrin arenada güc olacağı dönəmlər bitib artıq:** "Əslində analiz etsək dünya siyasətində də bu tandemin olduğunu görə bilərik. Ya bu tələbə uyğunlaşıb xalqın ayağına gedərək onun gücünü arxana alacaqsan və güc olacaqsan, ya da o güc sənin qarşında keçilməz divara dönəcək və səni siyasi səhnədən tam siləcək".

❑ **Etibar SEYİDAĞA**

**Xalqa xidməti elə lap uşaqlıqdan özünə amal, məslək bilib o. 1894-cü ildə Bakıda ilk ictimai qiraətxananı təsis edib. O vaxtkı müsəlman dünyasının bütün mətbuat nümunələrini yığıb bu qiraətxanaya. Cüzi məbləğ müqabilində buraxıb xalqın istifadəsinə. Qiraətxanaya giriş üçün gərək 2 qəpik haqq ödəyəydin. 12 aprel-1 oktyabr 1894-cü ilədək həmin qiraətxananı 3833 nəfər oxucu ziyarət edibmiş.**



# Nəriman Nərimanov - Azərbaycanın düşməni, yoxsa xilaskarı...

## O, külü Kreml divarına hörülmüş yeganə azərbaycanlıdır...

Azərbaycan dilinin qrammatik qanunları barədə ilk kitabı da yazan odu - Nəriman Nərimanov.

1906-cı ilin avqustunda Bakıda Müsəlman müəllimlərinin 1-ci qurultayı zamanı çıxış edən Nərimanov çar rejimindən xahiş edir müsəlmanlara qarşı müəyyən güzəştlər etsin. Azərbaycan dili salınsın təhsil proqramına. Müsəlman müəllimlər ilə rus müəllimləri bərabərhüquqlu olsunlar. Eyni maaşı alsınlar. Gurultulu alqışlarla müşayiət edilən bu məruzə bəzilərinin, xüsusən tanınmış mesenat, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin qəzəbinə tuş gəlir. O, həmin qurultayda çıxış edərək Nərimanova qarşı sərt ittihamlar irəli sürür: "Dünənki qərarınız göstərir ki, sizi Nərimanov kimi uzağı görməyən şəxslər idarə edir. Kimdir bu Nərimanov? Heç kim. Cibində qara qəpiyi də yoxdur. Mənim pulumа təhsil alır. Sonra gəlib burda müəllimləri qanunsuz hərəkətlərə təhrik edir. Qərarınızı dəyişin. Peterburqun gözündə bizi abırdan salmayın".

Nərimanov söz altında qalanlardan deyildi. Tağıyevin ittihamlarını cavabsız qoymur. Deyir, heç vaxt qızılın nökəri olmayıb. Heç Tağıyevin də nökəri olmayacaq. Xeyriyyəçidi, qoy elə xeyriyyəçi kimi də qalsın. Day əvəzində nökərçilik xahiş etməsin öz tələbələrindən.

***

Nərimanov barədə yazanların əksəriyyəti təkrarçılığa yol verib. Bu inqilabçı, həkim, müəllim haqda indiyədək yeni bir söz deməyiblər. Məxfi qovluqlarda saxlanılan saralmış sənədlərdə isə bizim tamam fərqli Nərimanovla tanış olmaq şansımız var.

Əvvəla, Nərimanov Bakıda qurduğu qiraətxana vasitəsilə o vaxtkı Şərqin bütün inqilabçı ünvanları, şəxsləri ilə birbaşa təmasda idi. Oktyabr inqilabı zamanı həmin ünvanlar, şəxslər Leninə hava-su qədər lazım olur. Nərimanov da xəsislik etmir. Başlayır bu ünvandakı şəxslərlə məxfi danışıqlara. Şərqdə böyük bir şəbəkə toru yaradıb onu verir sovet təbliğatının, Kominternin ixtiyarına.

Mustafa Kamal Atatürklə Lenin arasında əlaqələri yaradan şəxs də məhz odu - Nəriman Nərimanov. Avropada - yəni Almaniyada, Macarıstanda, İtaliyada kommunist inqilablar həyata keçirmək planları uğursuzluqla nəticələnəndə, doktor Nərimanov başqalarından fərqli olaraq özünü itirmir. Leninə, Trotskiyə növbəti hədəfləri Şərqdə axtarmağı məsləhət görür.

1920-ci ilin baharında Nərimanovla Lenin qərara gəlirlər, dünya imperializminə qarşı öz ilk zərbələrini məhz Şərq istiqamətində - Bakıda, Anadoluda vursunlar. Mustafa Kamalla gizli danışıqlar müsbət nəticələnir. Qərara gəlirlər ki, Bakıdakı türk hərbi mütəxəssisləri, türk zabitləri bolşevik qiyamına maneçilik törətməyəcək. Əksinə, ona hər cür yardım göstərəcəklər. 1920-ci il 28 aprel tarixində türk zabitləri Mustafa Sübhi, Çingiz İldırımın ətrafına yığılıb Bakıda qəfil üsyana başlayırlar.

Az sonra Bakıda "Şərq xalqlarının 1-ci qurultayı" çağırılır.

Sonra xüsusi qatarla Bakıya bolşevik ordusunun baş komandanı Frunze özü təşrif gətirir. Ancaq o, burda çox da ləngimir. Böyük miqdarda silah, pul, qızıl, mütəxəssislərdən yükünü tutaraq Bakıdan Tiflisə, ordan Qarsa yollanır. Anadoluda Atatürklə birləşən bu qüvvələr sonra parlaq qələbələr qazanacaq. Türkiyəni, türk xalqını azadlığa qovuşduracaq.

Əməliyyatın müəllifi, bayaq dediyim kimi, bir doktor Nərimanovdu, bir də Lenin. Bir də sözsüz, Mustafa Kamal Paşa.

Rus yazarı Pyotr İliçev bu mövzudan vaxtilə ikiəlli yapışıb. "Türk karvanı" romanında bu mövzunu oxuculara çatdırıb. 1986-cı ildə həmin roman Azərbaycan türkcəsinə tərcümə edilib. Qalır indi sizin Axundov kitabxanasına gedib bu kitabla tanış olmağınız.

***

Bakı neft şəhəri idi. Şəhəri labüd yanğınlardan qorumaq, neft mədənlərinin təhlükəsizliyini təmin etmək Lenin ilə Nərimanovdan xüsusi istedad tələb edirdi. Onlar çox məxfi bir əməliyyat planı qurub icrasını Çingiz İldırıma tapşırırlar.

Əməliyyatın bütün detalları ilə bəlkə ilk dəfə indi mən sizi tanış edirəm.

***

1920-ci ilin 28 aprelində Polşa lideri Pilsudski Kiyevi alır. Lenin buna Bakının fəthi ilə cavab verir.

Yəni o vaxtlar dünya şahmat taxtası üzərində gərgin oyun gedirdi. O vaxt təkcə Moskva deyil, London da Bakıda çevriliş etmək, zəif, hərəkətsiz parlament respublikasını çevik diktatura modeli ilə əvəz etmək istəyirdi. Polşadakı Pilsudski nümunəsi o vaxt Londona çox xoş görünürdü. İngilislər oxşar ssenarini Azərbaycanda təkrarlayıb, hakimiyyətə diktator gətirmək istəyirdilər. Çox çək-çevirdən sonra ingilislər bu diktatoru Xəzər Dəniz Donanması komandanı Çingiz İldırımın simasında tapırlar. Qərara gəlirlər ki, 28 aprel tarixində hakimiyyət çevrilişi edib, ölkədə diktatura elan etsinlər.

Ancaq Çingiz İldırım təkcə Londonun deyil, həm də Moskvanın adamıydı.

İkibaşlı oyun start götürür. Son anadək heç kim bilmirdi Çingiz İldırım, Mustafa Sübhü kimi hərbiçilər kimin tərəfini tutacaq - Londonun, yoxsa Moskvanın?

28 aprel 1920-ci il hadisələrinin əsl dramatizmi, kriminal süjeti, bax, bu cür olub.

Lenin öz agenti Çingiz İldırım vasitəsilə Londonu azdırıb. Çingiz Britaniyanın razılığı əsasında ayın 27-dən 28-nə keçən gecə ölkədəki bütün strateji nöqtələri ələ keçirib. İddia edib ki, bəs guya ölkədə diktatura qurduqdan sonra Pilsudskiylə birləşərək Moskvanın əleyhinə müharibəyə başlayacaq.

İngilislərin başının altına balış qoyan Çingiz İldırım, Mustafa Sübhü kimi türk zabitləri, əslində son anadək bilməyiblər kim qalib olacaq bu oyunda - ingilislərmi, ruslarmı?

Ən son anda Çingiz İldırım əsl kartları açır-bolşeviklərin ultimatumunu parlament kürsüsündən səsləndirir.

Bax, budur əsl həqiqət.

Onu biz hələ həzm etməyə hazır deyilik.

İngilis kəşfiyyatı Bakını heç vaxt Leninə təhvil verməzdi. Əgər Çingiz İldırımla Mustafa Sübhü ingilislərə yanlış informasiya ötürməsəydi. İngilislər ən azı neft mədənlərini yandırıb Lenini, Nərimanovu müdhiş alov sütunları ilə təkbətək qoymaq fikrində olublar. Ancaq Nərimanovun Leninin məxfi oyunları, Atatürkün qəti mövqeyi öz işini görür.

Bütün bunlar tarixi faktlar əsasında rəhmətlik yazıçı Firidun Ağayevin "İldırım dənizə çağır" romanında gözəl qələmə alınıb.

***

Qarabağın Azərbaycanda qalması da, yadda saxlayın, Nərimanovun xidmətidir. O, Rəsulzadədən təhvil aldığı Azərbaycan coğrafiyasını düşmənlərə satmadı. Azərbaycan Sovet Sosialist Respublikası çətiri altında müstəqilliyimizi bir başqa cür, başqa şərtlər altında davam etdirdi. Həm Azərbaycanı xilas etdi o vaxt, həm də qardaş Türkiyəni.

Xalq buna görə Nərimanovun heykəlinə, adını daşıdığı müxtəlif ünvanlara hörmət hissi sərgiləyir indiyəcən. Rusiya-Türkiyə-Azərbaycan üçbucağının bütün gələcək perspektivləri vaxtilə bu doktor tərəfindən cızılıb. Dəfələrlə tarixin sınağından üzü ağ, alnı açıq çıxıb.

Yenə də belə olacaq həmişə.

❑ **HƏMİD HERİSÇİ**

***Redaksiyadan:** Yazı müəllifin subyektiv mülahizələri əsasında hazırlanıb və redaksiya buradakı tarixi təhrif və əsaslandırılmayan, fantastik iddiaları bölüşmür. Lakin imzası geniş tanınan müəllifin bu yazısının maraqlı reaksiyalar, müzakirələr doğura biləcəyini nəzərə alaraq, onu dərc edir.*

# Rusiyanın Azərbaycanı parçalamaq iştahı



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Münaqişə və müşküllərin həllində şəxsiyyətin rolu danılmazdır. Tarixdən bildiyimiz qədər, bu rol hətta çox vaxt həlledici ola bilir - istər fərdi-məişət xarakterli mübahisə-münaqişələr olsun, istərsə də ictimaiyyəti, dövləti təhdid edən konfliktlər. Hərgah, şəxsiyyətlər problemi məharətlə qızışdıra, onun həllini əngəlləyə də bilirlər. Yəni Xeyrə yox, Şərə xidmət məsələsi.**

Bu xüsusda Ukraynanın sabiq prezidenti L.Kuçmanın bir etirafı diqqət çəkdi. Donbas probleminin indiyədək çözülməməsinin səbəblərindən danışan eks-prezident belə bir ifadə də işlədib. Sitat: "1992-ci ildə mənim də iştirakımla Qarabağa dair Minsk Qrupu yaratdıq. Nə xeyri oldu? Dağlıq Qarabağdan başqa, Azərbaycanın 20% ərazisi işğal olundu. Hər şey bir adamın əlində, bir adamdan asılıdır - Putindən".

Bu qənaəti bölüşməmək mümkünsüz. Putin doğrudan da, problem çözməkdən çox, problem yaratmaq ustasıdır, intriqantdır. Onun tərcümeyi-halı bu xüsusda elə az şey demir. Adam Rusiyada hakimiyyət başına gəldiyi 2000-ci ildən bu yana isə postsovet məkanında Moskvanın körüklədiyi bir konflikt belə, yoluna qoyulmayıb. Əksinə, 2008-ci ildə Gürcüstana hərbi təcavüz nəticəsində Abxaziya, Cənubi Osetiya problemləri daha mürəkkəb duruma salınıb, 6 il sonra - 2014-cü ildə isə suveren Ukraynanın ayrılmaz hissəsi olan Krım işğal edilib, yeni Donbas konflikti yaradılıb.

Bu harasıdır, hətta mötədil siyasətçi sayılan Dmitri Medvedyevin prezidentliyi dönəmində (2008-2012) Qarabağ məsələsinin həllində real işartı yaranan zaman ovaxtkı baş nazir V.Putin buna imkan verməmişdi. Yəni baş nazir ola-ola da Rusiyanın siyasətini məhz o - Putin yönəldir, Qarabağ məsələsində irəliləyişə əngəl yaradırdı (Dağlıq Qarabağ münaqişəsi tarixində diplomatik fəallıq baxımından ən aktiv dövr Medvedyevin prezidentliyi dönəminə düşür).

Əslində hər şeyin bir şəxsdən asılı olması bir yandan yaxşıdır. O anlamda ki, yalnızca həmin bu bir nəfərlə anlaşmaqla istənilən problemi birdəfəlik yoluna qoymaq olar. Di gəl, həmin şəxs - Putin adi birisi deyil, daxilən imperiya xəstəsidir, velikorus virusunun parlaq daşıyıcısıdır, Rusiya imperiyasını qorumaq və daha da böyütmək üçün hər şey hazır bir KQB mogikanıdır - sonuncu mogikan. SSRİ-nin hiyləgərcəsinə bərpasına yönəlmiş Avrasiya layihələrinin müəllifi də odur - Putin.

Yeni müharibələr, qırğınlar, konfliktlər, "soyuq müharibə" dövrünə qayıdış, artan 3-cü Dünya müharibə təhlükəsi - bütün bunlar da Putinin "əməyinin" məhsuludur. Bu üzdən ondan təkcə postsovet ölkələrinin deyil, Şərqi Avropa məmləkətlərinin də ehtiyatlanmasına lüzum var. Putindən ehtiyatlanmağa dəyər.

Söz düşmüşkən, əgər NATO kimi dünyanın ən böyük hərbi-siyasi alyansı da Putinlə bağlı tədbirli olmağa çalışırsa, Kremlinin əlinin asanca çatdığı "Yaxın xaric" ölkələri qat-qat tədbirli olmalıdır. Xüsusən də NATO üzvü olmayan, etibarlı təhlükəsizlik "çətiri"ndən məhrum keçmiş sovet respublikalarının ayıq-salması gərəkir.

Məsələ də bundadır ki, SSRİ-nin çöküşündən sonra Rusiya öz qonşuları üçün bunca təhlükəli olmamışdı. Bişəkk ki, buna görə əsas sorumlu indiki Kreml başçısıdır - Putindir. 2014-cü ilə Krımın zorla ilhaqı ilə Rusiyanın hazırkı lideri beynəlxalq hüquq normaların, BMT Nizamnaməsinin də ondan ötrü önəm kəsb etmədiyini nümayiş etdirib.

Bəs Putini, onun qorxunc siyasətini necə cilovlamalı - axı, tarix göstərir ki, Rusiya üçün dost-müttəfiqlik də nisbi anlayışdır? Kremlə üçün dost yox, daimi maraqlar var. Üstəlik, Rusiya özündən kiçik dövlətlərlə dostluğa, müttəfiqliyə ciddi dəyər vermir, onlara "ikinci, üçüncü sort" dövlət kimi, yuxarıdan aşağı baxır. Ermənistanın indiki durumu görkdür.

Deməli, Rusiya təhlükəsinə qarşı ən yaxşı "vaksin" bacardıqca onun təsir zonasından uzaqlaşmaq, onunla müttəfiqlikdən uzaq durmaq, Rusiyanın özünün çəkindiyi birlik və ittifaqlara qoşulmaqdır. Əks halda, "şimal ayısı"nın Azərbaycanı da tək-tənha bilib parçalamaq iştahı azalmayacaq.

Yeni MÜSAVAT
N 135 (6749) 24 iyun 2017

# Başqaları oxusalar bəsimizdir



Zamin HACI
zaminhaci@gmail.com

**"Nəyə görə qeyri-demokratik rejimlər demokratik prosesləri və institutları imitasiya edirlər? Bu, çağdaş dövrümüzdə politologiya elminin üzərində çalışdığı əsas suallardan biridir. Bu mövzuda bir neçə nəzəriyyə var. Ümumi elmi nəzəriyyə belədir: avtokratik və hibrid rejimlər baza səviyyəsində demokratiyanı ona görə yamsılayırlar ki, bu, onların dayanıqlılığını yüksəldir. XX əsrin tarixi göstərdi ki, belə məsuliyyət, cavabdehlik bölgüsü olmayan təmiz avtoritar modellər daha kövrəkdir. Onlar xarici sarsıntıların, daxili sui-qəsdlərin və sairənin qurbanına çevrilərək dağılırlar. Özünü demokrat kimi göstərənlər isə daha qıvraqdır, onlar dəyişən şəraitə uyğunlaşır, uzun ömür sürürlər. Burada həm də iki yan məqsəd var. Birincisi, xarici kontragentlərində, müqavilə öhdəlikləri götürdükləri dövlətlər və qurumlarda təəssürat oyadır və beləliklə, dünya siyasətində, iqtisadiyyatında, maliyyə həyatında iştirak edirlər. İkincisi, daxili auditoriyada təəssürat oyadırlar".**

Bu uzun sitatı xeyli vaxtdır hansısa xarici ədəbiyyatdan götürüb tərcümə etmişəm, heç yadıma gəlmir hansı əsər idi. İndi yazıda verməkdə məqsədim isə oxuculara dünyada tək olmadığımızı göstərmək, bir az dərdimizi azaltmaqdır, necə deyərlər, elnən gələn dərd-bəlaya düçar olmuşuq. Çünki diqqətlə oxusanız müəllif sanki Azərbaycandakı dövlət sistemini, hakimiyyəti təsvir eləmişdir, halbuki dəqiq yadımdadır, o yazıda bizim ölkənin heç adını çəkən olmamışdı.

Bəzən də elə olur ki, ədəbiyyatda öncə yazılanlar həyatda əksini tapır. Bu yaxında Rusiyada, Moskva yaxınlığında bir kişi bağ evinin pəncərəsindən yoldan keçən təsadüfi adamları güllələməyə başlamışdı. Dörd nəfər ölmüşdü. Ondan qabaq başqası da doqquz adamı öldürmüşdü. Belə hadisələr İsveçdə, Amerikada da təkrarlanmışdı. Çağdaş dünyanın psixozlarından birimi deyək, ya nəsə ayrı adı varmı, bilmirəm, ancaq zırramanın birisinin tüfəng götürüb təsadüfi, heç tanımadığı adamları öldürməsi halları artır. Hər dəfə belə olaylar haqda xəbərə rast gələndə mən rus yazıçısı Vladimir Sorokinin hardasa 20 il qabaq yazdığı "Snayperin səhəri" hekayəsini xatırlayıram. Soyuqqanlılıqla yazılmış bu hekayənin qəribə, dəhşətli havası var. Snayper gəlib evin damına çıxır, ordan küçədən keçənləri vurmağa başlayır. Xeyli adamı öldürür, sonra isə sakitcə küçəyə çıxıb... sosiska növbəsinə durur.

Məqamı gəlib, dahi kino rejissoru Andrey Tarkovskidən bir sitatı da yazım. Məncə, oxucularımız üçün Tarkovskinin fikirlərini oxumaq daha maraqlı olar, nəinki üçüncü dünya ölkəsində yaşayan bir köşə yazarının şəxsi düşüncələri. Buyurun:

"Məndə artıq belə hiss var ki, bəşəriyyət özünə inanmır. Bütün "bəşəriyyət" yox, hər bir fərd ayrı-ayrılıqda. Mən çağdaş insan haqqında düşünərkən onu xorda mahnının taktına uyğun olaraq ağzını açıb-yuman, ancaq özü mıqq da eləməyən xor müğənnisi kimi təsəvvür edirəm. Bütün başqaları oxuyurlar! O isə ancaq oxumağı təsvir eləyir, həm də əmindir ki, başqalarının oxuması bəsdir. Beləcə, o öz əməllərinin nəticəsinə artıq özü də inanmır. Çağdaş insan ümidsiz yaşayır, içində yaşadığı cəmiyyətə öz hərəkətləri ilə təsir edəcəyinin mümkünlüyünə onda heç bir inam yoxdur".

Gördüyünüz kimi, Tarkovski də çağdaş insan haqda danışarkən sanki elə bizi - indiki azərbaycanlıları təsvir eləyibdir. Halbuki, bu sitat Tarkovskinin 1984-cü ildə Stokholmda çıxan "Çaplin" jurnalına intervüsündəndir. Bəlkə gerçək ədəbiyyatın, sənətkar sözünün qüdrəti də elə bundadır, bu söz həmişə aktualdır, hər kəs istəsə ordan dərslər ala bilər.

# Moskvada hazırlanan gizli plan haqda şok bilgilər




# Abbas Abbasov hakimiyyətə qarşı yeni ittifaq qurur

## Sabiq nəqliyyat naziri Ziya Məmmədovun işdən uzaqlaşdırılması ilə Abbas Abbasovun hakimiyyətlə olan bütün gizli bağları da corab söküyü kimi süzülüb; sabiq vitse-primyer 2018-ci ildə mütləq Azərbaycana qayıdacağı və seçkilərdə iştirak edəcəyi mesajını verib, amma...

**Rusiya Ali Məhkəməsinin Azərbaycanın ən böyük diaspora təşkilatı olan Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) qeydiyyatını ləğv etməsindən bir aydan artıq vaxt ötür. Mayın 15-də ÜAK-ın qeydiyyatının ləğvindən sonra bu quruмun nə rəsmi, nə də qeyri-rəsmi müraciətlərinə Rusiya rəsmi orqanları diqqət yetirmir.**

ÜAK-ın qeydiyyatının ləğvindən sonra iki ölkə arasında münasibətlərdə zahirən dəyişən heç nə yoxdur, amma aydındır ki, rəsmi Bakı vaxtilə mərhum prezident Heydər Əliyevin iştirakı ilə yaradılmış qurumun əsassız bəhanələrlə ləğv edilməsindən məyusdur.

ÜAK-ın hələ qeydiyyatı məsələsi məhkəmə baxışına veriləndə belə iddialar vardı ki, Rusiya 2018-ci il prezident seçkiləri üçün "hazırlıq" içərisindədir və yenidən "Milyarderlər İttifaqı" kimi oyuncaq qurumlar ortaya atıla bilər.

Milli Məclisin yəhudi əsilli deputatı Yevda Abramov mətbuata müsahibəsində bu mövzuda sensasion sayılacaq iddialar səsləndirmişdi. Y.Abramov demişdi ki, yenidən Azərbaycanın daxilində qarşıdurma və təlatüm yaratmaq üçün 2013-cü il seçkiləri ərəfəsində "Milyarderlər İttifaqı" kimi oxşar hadisələr baş verə bilər. O, ad çəkməsə də, aydın idi ki, əsas şübhələr yenə də Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasovun üzərində cəmlənir. Çünki 2013-cü il prezident seçkilərindən öncə "AzərRos"un rəhbəri olan A.Abbasov Moskvada tələm-tələsik Moskva azərbaycanlılarının birliyini - "Milyarderlər ittifaqı"nı yaratmışdı. Bəzi Azərbaycan milyonçularını başına toplayan A.Abbasovun məqsədinin heç də güclü diaspora yaratmaq olmadığı tezliklə üzə çıxdı. Sabiq vitse-primyer Kremlin dəstəyindən ürəklənərək Azərbaycan hakimiyyətinə qarşı bəyanatlar verməyə, hətta Bakını hədələməyə cəsarətləndi. Bakıda Milli Şura quraraq ən yaxın adamı hesab olunan Rüstəm İbrahimbəyovun müxalifətin namizədi olmasına nail oldu.

Xəbərlər var ki, A.Abbasov yenidən fəallaşıb, Moskvadakı və Bakıdakı tərəfdarlarını "yeni plan" üçün başına toplamaq işinə girişib. Onun yaxın dostu, sabiq nəqliyyat naziri Ziya Məmmədovun işdən uzaqlaşdırılması ilə hakimiyyətlə olan bütün gizli bağları da corab söküyü kimi süzülüb. A.Abbasov oğlunun mandatını itirməsindən sonra bütün ailəsini Bakıdan çıxarıb. Bildirilir ki, A.Abbasov son aylar Rusiya regionlarındakı keçmiş tərəfdarlarını Moskvadakı gizli ofisinə toplayaraq təlimatlandırır.

Məlumatlı qaynağın "Yeni Müsavat"a verdiyi xəbərə görə, baş nazirin sabiq 1-ci müavini 2018-ci ildə mütləq Azərbaycana qayıdacağı və seçkilərdə iştirak edəcəyi mesajını verib. Bunu hansı "sehrli çubuqla" edə biləcəyi məlum deyil, amma A.Abbasov Kremldə hələ də ona "etimad edildiyi" təəssüratını yarada bilib.

İddialara görə, son aylar onun biznesinə də Rusiyada "yaşıl işıq" yandırılıb, bir neçə iri tikinti şirkətlə ilə əməkdaşlıq şansı yaradılıb. Təsadüfi deyil ki, o, sabiq deputat oğlunu Dağıstandakı tikinti biznesinə rəhbərlik üçün göndərib. Bu barədə Dağıstan qəzetləri də xəbərlər yayıb.

A.Abbasovun "siyasətə yenidən qayıdışı", daha doğrusu, "xortlaması" barədə Bakıdakı rəsmilər də xəbərdardır, amma iddia olunur ki, hələ "bu hərəkətlilik diqqətlə izlənilir", yəni heç bir reaksiya verilmir. Ola bilsin ki, A.Abbasov hələ tam "qınından" çıxmağa cəsarət etmir, çünki Azərbaycandakı seçkilərə zaman var. Daha bir versiya da var ki, Rusiyadakı bəzi anti-Azərbaycan dairələri Abbas Abbasovdan "xoxan" imici düzəltməklə rəsmi Bakıya təsir etmək planı üzərində işləyirlər. Çünki Rusiyada da gələn il keçiriləcək seçkilərlə bağlı hələ xeyli aydınlaşmayan məqamlar var. Bu xəbərlərin tirajlanması da ona işarə ola bilər ki, Abbas Abbasov üzərindən plan hazırlanır və ehtiyat variant kimi saxlanılır.

Amma indidən də ehtimal etmək olar ki, 2018-ci il seçkiləri ərəfəsində A.Abbasov Rusiyadakı qüvvələrin maraqlarına daha çox uyğun gəlir. Əvvəla, ona görə ki, hakimiyyətlə bütün körpüləri yandıran A.Abbasovun itirəcəyi bir şey qalmayıb. İkinci bir məqam, A.Abbasovun hakimiyyət hərisliyi və Rusiyaya hələ tam üzə çıxmayan gizli tellərlə (məsələn, kəşfiyyatla) həmişəlik bağlılığıdır.

Daha bir maraqlı məlumatı 10 may.az saytı yayıb. Sayt da öz mənbələrinə istinadən təsdiqləyir ki, ÜAK-ın ləğvindən sonra A.Abbasov yenidən aktivləşib. **"O, bu təşkilatın ləğvindən sonra yeni təşkilat yaratmaq ideyası ilə çıxış edib və Moskvada fəaliyyət göstərən iş adamları ilə danışıqlara başlayıb. Abbas Abbasov təşkilatın həm də siyasi çəkiyə sahib olması üçün Rüstəm İbrahimbəyovla dəfələrlə görüşməyə cəhd edib. Amma Rüstəm İbrahimbəyov müxtəlif bəhanələrlə danışıqlardan imtina edib. Nəhayət, bugünlərdə tərəflər telefonla əlaqə yarada biliblər. Amma Rüstəm İbrahimbəyov açıq şəkildə bildirib ki, onu siyasi intriqalara qatmasınlar. Bu cavabdan sonra Abbas Abbasov Rüstəm İbrahimbəyovu qorxaqlıqda günahlandıraraq söhbətə son qoyub"** deyə, məlumatda bildirilir.

Sabiq vitse-primyerlə bağlı xəbərləri Moskvadakı mənbələrimizlə bir daha dəqiqləşdirib oxuculara məlumat verməyə çalışacağıq.

❑ **"YM"**

**Hər bir dövlətin gücü sözsüz ki, ilk növbədə onun iqtisadi və hərbi qüdrəti ilə ölçülür. Daha çox da iqtisadi amil həlledici sayılır, çünki güclü ordu bu amillə birbaşa bağlıdır. Ərazisinin 20%-i illərdir erməni işğalı altında olan Azərbaycan üçün hərbi faktor isə ikiqat, üçqat önəm daşıyır.**

# Azərbaycanın hərbi sənayesi güclənir - işğalçının yuxusunu qaçıran gəlişmə

## Prezident İlham Əliyev yeni hərbi zavodun açılışını etdi; xaricdən silah asılılığımız azalır; Bakı Ermənistanla informasiya savaşını da gücləndirir: Kremlin daha bir ideoloqu Bakıda...



O da məlumdur ki, güclü hərbiyyəsi olan ölkə həm də öz hərbi sənaye kompleksi olan ölkədir, silah idxalçısından daha çox silah ixracatçısı olan dövlətdir. Nə yaxşı ki, işğalçı Ermənistandan fərqli olaraq, Azərbaycan son illər bu yöndə nəzərəçarpan uğurlar əldə edib və etməkdədir. Bu isə o deməkdir ki, xarici ölkələrdən silah asılılığımız azalmağa doğru gedir. Bu da öz növbəsində müharibə vəziyyətində olan Azərbaycan üçün xüsusi önəm daşıyır.

Bakı ələlxüsus da strateji dost-tərəfdaş olan ölkələrlə - qardaş Türkiyə, İsrail və Pakistanla hərbi-texniki sahədə əməkdaşlığı ilbəil dərinləşdirməkdədir. Artıq bir sıra müasir döyüş silahlarının, atıcı silahların istehsalına başlanıb. Onlardan məsələn, düşmənin qorxulu röyası olan "Zərbə" pilotsuz uçan aparatların adını çəkmək olar.

***

Dünən isə Azərbaycan prezidenti İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin "Şərq" İstehsalat Birliyinin Şirvan şəhərindəki TƏQ-7V2 (RPQ) tipli tank əleyhinə əl qumbaraatanı üçün 4 növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışında iştirak edib.

Zavodun yaradılmasında əsas məqsəd tank və özüyeriyən artilleriya qurğuları, o cümlədən dinamik qoruyucu sistemlər ilə təchiz olunmuş, həmçinin yüngül zirehli və zirehsiz texnika ilə mübarizə aparmaq, bundan başqa açıq ərazilərdə, səngərlərdə yerləşən düşmənin canlı qüvvəsini məhv etmək üçün TƏQ-7V2 (RPQ) tipli tank əleyhinə əl qumbaraatanı üçün 4 növ - qəlpəli, kumulyativ tandem, termobarik və inert qumbaralı atəş yığımlarının seriyalı istehsalının təşkil edilməsidir.

Bu sursatlar 700 metrədək məsafədə düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək qabiliyyətinə malikdir. Zavodun illik istehsal gücü birnövbəli iş rejimində 20 min atəş yığımı təşkil edir ki, bu da güc strukturlarının tələbatını ödəməyə imkan verəcək. Bu məmulatlara xarici dövlətlərdən sifarişlərin olduğunu nəzərə alaraq gələcəkdə ixrac imkanları nəzərdən keçiriləcək. Prezident müəssisə kollektivinə uğurlar arzulayıb və zavodu işə salıb.

***

Bu, şübhəsiz ki, işğalçı Ermənistan üçün qanqaraldıcı bir xəbərdir. Hər necə olmasa, təcavüzkar ölkə də necə vaxtdır öz hərbi-sənaye kompleksini yaratmağa çalışır. Lakin bundan ötrü qanunverici aktlar qəbul eləsə də, maliyyə-iqtisadi resursların kasadlığı real iş qurmağa imkan vermir. Rusiyaya isə öz satellitinin belə durumu tam əl verir, çünki Ermənistanı daha güclü şəkildə öz asılılığında saxlayır.

Lakin Azərbaycan Ermənistan deyil. Azərbaycan öz təbii qaynaqları, iqtisadi imkanları hesabına öz milli hərbi sənayesini qurub inkişaf eləmək potensialındadır və yöndə işlər uğurla davam edir. Milli hərbi sənaye isə müharibə olacağı təqdirdə Azərbaycanın start üstünlüyü deməkdir. Hətta müharibə olmasa belə, düşmən üzərində, danışıq masasında psixoloji üstünlük yaradan faktordur. Nəhayət, ixrac (satış) uğurla təşkil olunarsa, bu, həm də büdcəyə əlavə gəlir deməkdir.

***

Bakı paralel surətdə işğalçı Ermənistanla informasiya müstəvisində də müharibəni davam etdirir. Etiraf edək ki, müasir dövrdə təbliğat-informasiya savaşı da hərbi və diplomatik qələbə üçün az önəm kəsb eləmir. Xüsusən Ermənistanın əsas müttəfiqi və havadarı Rusiyada Qarabağla bağlı ictimai rəyi xeyrimizə dəyişmək mühüm önəm daşıyır.

Bundan ötrü həmin rəyə təsir imkanı olan tanınmış ictimai-siyasi xadimlərlə, KİV-lərlə işləmək çox vacibdir. Təbii ki, bu yolda maliyyə, pul xərcləməyə xəsislik etməməliyik. Çünki belə xərclər enində-sonunda özünü mütləq doğruldacaq və qazanan Azərbaycan, Qarabağ məsələsi olacaq.

Söz düşmüşkən, bu arada Kremlin daha bir ideoloqu - rusiyalı yazıçı və ictimai xadim, avrasiyaçılıq ideoloqu Aleksandr Proxanov Bakıya gəlib. "Yeni Müsavat" haqqin.az-a istinadla xəbər verir ki, səfər zamanı o, Azərbaycanın ictimai-siyasi xadimləri və yüksək çinli məmurlarla görüşəcək, İsmayıllıda İvanovka kəndinə baş çəkəcək. Maraqlıdır ki, Proxanovun özü də əslən həmin kənddəndir.

Arayış üçün onu da bildirək ki, A.Proxanov sovet və Rusiya siyasi xadimi, yazıçı, ssenarist, publisist, jurnalist, ictimai xadimdir. Rusiya Yazıçılar İttifaqı katibliyinin üzvü, "Zavtra" qəzetinin baş redaktorudur. Son illər, üstəlik, Rusiyanın (Kremlin) əsas ideoloqlarından biri kimi çıxış edir.

Bu yerdə yada salaq ki, az öncə Rusiyanın başqa bir ideoloqu - tanınmış ictimai-siyasi xadim, filosof və politoloq Aleksandr Duqin Bakıda olarkən Dağlıq Qarabağla bağlı bir sıra çox mühüm bəyanatlarla çıxış etmiş, ölkəmizdən xoş təəssüratla getmişdi. Azərbaycan haqda xoş təəssürat isə Qarabağla bağlı haqlı mövqeyimizin daha anlaşıqlı qarşılanması və müdafiə edilməsi deməkdir - xüsusən Duqin, Proxanov kimi ictimai rəyə təsiri olan xadimlər səviyyəsində...

❑ **Siyasət şöbəsi**

# "Ermənistan NATO ilə münasibətlərində səmimi deyil"

## Sərkisyan rejiminin qurduğu oyun öz başında çatlaya bilər

**Ermənistandakı Serj Sərkisyan hakimiyyətinin Moskvaya qarşı ikili oyunu NATO-nun Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə nümayəndəsi Ceyms Appaturayanın İrəvana bugünlərdə etdiyi səfəri zamanı üzə çıxıb. Məlum olub ki, Ermənistan prezidenti və parlamentin spikeri Aro Babloyan Rusiya ilə qarşıdurma səviyyəsində olan NATO-nun rəsmisinə xeyli isti mesajlar verib. Serj Sərkisyan NATO-nun baş katibi Yens Stoltenberqi İrəvana dəvət edib ki, "gələcək planları müzakirə etsinlər".**



Qabil Hüseynli

Ermənistan hakimiyyətinin Rusiyaya qarşı planları isə daha çox parlament spikeri ilə müzakirələrdə ortaya çıxıb. Spiker NATO ilə əlaqələri daha da genişləndirmək üçün Brüsseldən hərəkətlilik istəyib. C.Appaturay isə Ermənistan rəsmisini arxayın edib ki, tezliklə NATO-nun xüsusi proqramı elan olunacaq ki, orada Ermənistanın maraqları təmin ediləcək. Bu bəyanat Ermənistan mətbuatında ciddi ajiotaj yaradıb. Mediaya açıqlamasında C.Appaturay əlavə edib ki, Ermənistanla NATO-nun münasibətləri "əladır" və İrəvanın Əfqanıstandakı sülhməramlı kontingentin tərkibinin genişləndirilməsi gündəmdədir. NATO rəsmisi əlavə edib ki, 120 nəfərlik kontingentin tərkibinin genişləndirilməsi Ermənistanın müdafiə naziri Vigen Sərkisyanın Brüsselə səfəri zamanı müzakirə olunacaq.

Ekspertlər isə hesab edir ki, NATO ilə ciddi tərəfdaşlıq, real yaxınlaşmanın olması təkcə Ermənistan hakimiyyətinin deyil, "bütün erməni xalqının" sonunu gətirə bilər.

**Politoloq Qabil Hüseynli hesab edir ki, Ermənistan NATO ilə münasibətlərində səmimi deyil. Ermənistan hakimiyyəti siyasi oyun oynayır, manevr edir:** "Rusiyaya mesaj verirlər ki, bizi sonadək ciddi dəstəkləməsən NATO-ya qoşularıq. Ermənistan KTMT-nin üzvüdür. KTMT-nin baş katibi ermənidir, KTMT-nin bir sıra qurumları Ermənistanda fəaliyyət göstərir. Rusiya Ermənistan sənayesini bu ölkənin borcu müqabilində öz əlinə keçirib, Ermənistanda Rusiyanın böyük hərbi bazası yerləşir. Rusiya istənilən an Ermənistanda hakimiyyəti dəyişmək imkanındadır. Belə bir reallıq ortada olduğu halda Ermənistan iqtidarının Rusiyadan üz çevirib NATO-ya qoşulması inandırıcı deyil, İrəvan, sadəcə, manevr edir, həm də NATO-nu aldadır. Serj Sərkisyan rejiminin NATO-ya qoşulmaq qədər cəsarətli olması real deyil. Sərkisyan tükdən asılı vəziyyətdəydi, onu Rusiya xilas etdi. İndi Moskvaya arxa çevirsə, Kreml onu asar. Hətta Sərkisyan NATO məsələsində səmimi olsa belə, onun arzusu indiki vəziyyətdə xülya olar. Moskva onu elə bu arzusu, xülyası ilə dəfn edər. Ermənistan adlı dövləti Rusiya yaradıb, ermənilərin taleyini həmişə ruslar müəyyənləşdirib. İndiki zamanda da Ermənistan adlı dövlətin mövcudluğunu ruslar təmin edir. Odur ki, NATO-ya meyllənmək görüntüsü yaratmaq şantaj və Rusiyadan əlavə nələrsə almaq məqsədi güdür. Baxmayaraq ki, Rusiya son zamanlar Ermənistanın bütün arzularını yerinə yetirir, görünür, ermənilərin başqa umacaqları da var. Bu məsələnin altında daha ciddi mətləblərin yatdığını söyləsək yanılmarıq".

**Politoloqun sözlərinə görə, nəzəri cəhətdən hesab etsək ki, Rusiya Ermənistanın NATO-ya qoşulmasına imkan verdi, lakin Ermənistanın NATO-da etibarlı müttəfiq olması mümkün deyil:** "Ermənistan NATO-nun içində araqarışdıran, bur qurumu içindən sarsıdan Rusiya casusu rolunu oynayacaq. NATO-ya daxil olan dövlətlər bunu bilməlidirlər. Mən heç vaxt Ermənistanı NATO-nun tərkibində görə bilmirəm".

**Q.Hüseynli vurğuladı ki, Ermənistanın NATO-ya yaxınlaşmasından o halda Azərbaycan Qarabağ məsələsində xeyir görə bilər ki, İrəvanın NATO ilə yaxınlaşması siyasi oyun olmasın, səmimi istək olsun:** "Belə olduğu halda Kreml Ermənistanı ağır cəzalandırmaq yollarına əl atar. Bu yollardan biri də Qarabağ məsələsində ermənilərə dəstəkdən imtina edilməsi, Azərbaycanın yolunun açılması ola bilər. Lakin yuxarıda qeyd etdiyim kimi, Ermənistanın NATO-ya yaxınlaşma görüntüsü yaratmasının oyun, manevr olduğu ehtimalı daha böyükdür".

❑ **Etibar SEYİDAĞA**

# Məmurları gəlir bəyannaməsindən "azad edən" səbəblər

## Zahid Oruc: "Ötən illər ərzində məmurların fəaliyyətini əhatə edən onlarla qanun işlənib hazırlansa da, bu məsələ hələ açıq qalmaqdadır"

**Azərbaycanda işi məhkəmədən keçən yüksək çinli sabiq məmurların vəzifədə olduqları müddətdə nə qədər dövlət vəsaitlərini mənimsəmələri çoxlarına məlumdur. Lakin məsələ burasındadır ki, ölkədə hər hansı bir məmurun gəlirləri yalnız onun həbsindən və ya istintaqa cəlb edilməsindən sonra məlum olur. Vəzifədə olduğu müddətdə isə onun gəlirləri haqqında ictimaiyyətin məlumat alması mümkün deyil. Çünki illərdir ölkədə gəlir deklarasiyası haqqında qanun qüvvəyə minmir. Ekspertlərin fikrincə, elə bu faktorun özü ölkədə korrupsiya hallarına qarşı mübarizəyə də mənfi təsir göstərir.**

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **deputat Zahid Oruc** bildirib ki, gəlirlərin deklarasiyası ilə bağlı məsələ 2000-ci ildən sonra ölkədə geniş şəkildə müzakirə edilib: "Bununla bağlı müxtəlif diskussiyalar gedib. Elə həmin ildən qanun qəbul olunub və qüvvəyə minib. Lakin sonrakı dövrdə Nazirlər Kabineti sözügedən qanunun tətbiqi ilə bağlı müvafiq mexanizmlər hazırlamalı idi. Bu, həm şəffaf idarəçilik üçün çox önəmli olacaqdı, həm də cəmiyyətdə məmura münasibətdə fərqli şəkil alacaqdı. Yəni burada silsilə səbəbləri göstərmək olar. Çünki Avropa ölkələrində bu, geniş yayılmış hüquqi prinsiplərdir. Ancaq açıq deyək ki, müvafiq olaraq, hökumət tərəfindən bu cür addımlar atıla bilmədi. Bu isə müxtəlif səbəblərlə izah olundu. Ötən illər ərzində məmurların fəaliyyətini əhatə edən onlarla qanun işlənib hazırlansa da, bu məsələ hələ də açıq olaraq qalmaqdadır. Əlbəttə, bizimlə eyni sovet məkanından çıxan bəzi ölkələrin nümunəsinə əsasən fikirlər söyləyə bilərik ki, onlar bu yöndə addımlar atdıqları halda nəticələri nə oldu. Məsələn, 2014-cü il Maydan inqilabından sonra Ukrayna hüquqi-siyasi cəhətdən çox kardinal yeniləşmə dövrünə qədəm qoydu. Orada gəlir bəyannaməsi ilə bağlı məsələni gündəmə gətirdilər və bu yöndə Radada qanun qəbul olundu. Tətbiq zamanı isə çoxlu problemlər meydana çıxdı. Bəlli oldu ki, kimsə 17-18-ci əsrdən qalmış çox qiymətli antikvar əşyalarını da qeyd edir və bunun da qiymətini təyin etmək asan deyil. Eyni zamanda məlum oldu ki, kimlərsə öz mülkünü başqa şəxslərin adına rəsmiləşdiriblər. Bəziləri də öz imkanlarını qat-qat artıq göstərmiş oldular. Nəticədə konkret şəxsləri sorğulamaq istiqamətində addımlar atmaq mümkün olmadı. Oliqarxlar öz biznes gəlirlərini çox şişirdilmiş təqdim edib, necə deyərlər, özləri üçün "yer" saxlamışdılar. Nəticədə söyləmək olar ki, məsələ çox da sadə deyil. Bir qanunla nəticə almaq çətindir və ümumilikdə götürəndə, bu, çoxşaxəli bir prosesdir. Bütün məsələlər kompleks şəkildə aparılmalıdır. Belə olan təqdirdə qanunla dürüst çalışan məmur obrazı cəmiyyətdə möhkəmlənər. Bu isə hökumətin, icra orqanlarının xeyrinə olar. Eyni zamanda vətəndaşla məmur münasibətlərini də yeni bir səviyyəyə keçirər".

**Deputat bildirib ki, burada ictimai rəy məsələsi də çox önəmlidir:** "Son illər idarəetmə sistemində aparılan islahat fonunda qeyd etdiyimiz yöndə də mexanizmin hazırlanacağına ümid edirəm. Məsələn, seçkilər dövründə hər kəs çox rahatlıqla öz imkanlarını, əmlak, mülkiyyət, gəlirini deklarasiya olaraq təqdim edir. Ancaq bunu hamıya şamil etdikdə, mürəkkəbliyin olduğunu da inkar etmək olar. İş ondadır ki, ictimai rəy də çox önəmli bir fenomendir. Çünki



hər bir halda biz cəmiyyətdə dürüst çinovniklər məfhumunu formalaşdırmalıyıq. Ötən illər ərzində bu cür sabit əqidəsi, peşəkarlığı ilə seçilən və dövlət idarəetmə orqanlarında prezidentin komandasında, hökumət sistemində qanunlar çərçivəsində yüksək ləyaqətlə millətimizə xidmət edən insanlar da yetərincə çoxdur. Ancaq bunun paralelində cəzasını almış, həmçinin fəaliyyətlərinə görə hökumət sistemindən və yaxud da digər orqanlardan kənarlaşdırılmış insanlar da var. Açığı demək lazımdır ki, bu məsələdə bəzən biz ən mühüm mühakimə vasitəsi olan vətəndaş qınağının güclü bir şəkildə silah kimi onların əleyhinə yönəlməsini görmürük. İkili bir mövqe var-bəzən qədərindən artıq məhkəmələrin qurulduğunun şahidi oluruq, lakin sonrakı dövrdə situasiya yeni yaranır. Elə bilin ki, vurğular yerini dəyişir və dünənə qədər əsas fiqur kimi təqdim olunan adamı sonradan mücahid kimi təqdim edirlər və onun timsalında talesiz, bəxtsiz cavan obrazı yaradırlar. Yaxud da onların vəzifədən qovulduqları təqdirdə əldə etdikləri pul kütlələri sanki hansısa xeyirxah məqsədlərə yönəldiyi halda təmizlənmiş olur, legitimləşir. Ona görə də qınaq mexanizmi güclü bir qüvvədir. Məsələn, Finlandiyada olduğunuz zaman görəcəksiniz ki, adamlar ictimai məclislərdə badə qaldırıb, kiməsə vəzifə arzulamırlar. Çünki bu, onlar üçün yetərincə məsuliyyət, çərçivə içərisində fəaliyyət anlamına gəlir. Onlar düşünmürlər ki, bu, hansısa böyük, fərqli həyata qədəm qoymaqdır. Yəni vəzifə onların gələcəyinin təminatı sayılmaz. Ümid edirəm zamanla bizdə də hansısa mənfi tendensiyalar arxada qalacaq. Nəhayətində, məsuliyyətlilik, cavabdehlik, peşəkarlıq, ad, reputasiya məsələləri daha öndə olacaq. Ölkəmizin hazırkı idarəetmə sistemində yetərincə bu cür insanlar var. Onlar ötən dövr ərzində dövlətin, siyasi-iqtisadi proqramların icrasında ölkə başçısına yaxından kömək edib, bu prosesdə iştirak ediblər. Əks halda, bu cür kardinal dəyişikliklərə nail olmaq mümkün deyildi. Azərbaycan proqramlı idarəçilik dövrünü 2005-ci ildən fəal bir şəkildə yaşamaqdadır. Çünki ölkə rəhbəri hakimiyyətə gələndən qısa bir zaman sonra bütün sahələrlə bağlı ambisiyalı planları qarşıya qoydu. Onların hər birinin yol xəritəsini hazırlamaq isə dediyimiz komanda üzvlərinin üzərinə düşdü. Çünki onlar etibarı üzərilərində saxlayıblar və bu gün də çalışmaqdadırlar. Lakin gördüyünüz kimi, bir qisim şəxslər artıq vəzifələrində çalışmırlar, bu da mühüm bir göstəricidir. Ona görə də gəlir deklarasiyasından danışarkən, hər birimizin cəmiyyət qarşısında fəaliyyətinin hesabatı haqqında düşünməliyik. Bu, bütün hakimiyyət qollarına şamil olunan məsələdir və ümid edirəm ki, Azərbaycanda gələcək dönəmdə idarəetmə sisteminin üzərindəki ən mühüm məsələlərdən biri elə bu olacaq".

❑ Əli RAİS

# Bakıda binanın yolunun bağlanması etiraz doğurdu

## "Azəravtoyol" rəsmisi: "Biz insanların narahatlıqlarını başa düşürük, amma..."

**Yasamal rayonunda yolların yenilənməsinə görə uzun müddət bağlı qalması, binaların həyətlərinə giriş-çıxışların bardürlərlə kəsilməsi etiraz doğurub. Yasamal rayonu, Abdulla Şaiq küçəsi 216 ünvanında yerləşən yaşayış binasının Müşfiqin heykəli ilə üzbəüz olan əsas girişi bağlanıb. "Azəravtoyol" ASC-nin əməkdaşları bu ərazidə aparılan yenidənqurma işləri ilə əlaqədar 200 ailənin yaşadığı həyətin girişini sakinlərin üzünə qapadıb.**

Sakinlər deyiblər ki, təkcə özləri yox, bundan sonra yanğınsöndürən maşınların da binanın həyətinə daxil olması mümkün olmayacaq. Fövqəladə Hallar Nazirliyindən (FHN) binanın həyətinə gələn nümayəndələr də yolun bağlanmasının normativlərə uyğun olmadığını bildiriblər. Sakinlər məsələ ilə bağlı yuxarı instansiyalara müraciət edəcəklərini qeyd ediblər.

***

Bakı sakinlərinin, paytaxtın qonaqlarının sevimli məkanlarından biri də Novxanı çimərliyidir. Lakin yol çəkilişi ilə əlaqədar qəsəbə ərazisindəki çimərliklərin ərazisinə girmək mümkün deyil. Bu da çimərlikdə istirahəti xoşlayan, sərinlənmək üçün özünü Novxanı çimərliyinin ərazinə verənlərin etirazına səbəb olub. Vətəndaşlar yol çəkilişi ilə məşğul olan qurumları plansız iş görməkdə günahlandırırlar. Deyirlər ki, yol çəkilişi planlı şəkildə aparılsaydı, çimərlik mövsümü zamanı yol bağlı qalmazdı.

**Yenidən qurulan yolların uzun müddət bağlı qalmasını ictimailəşdirən tanınmış hüquqşünas Aslan İsmayılov müvafiq dövlət qurumlarının rəsmilərinə müraciət edib. Özünün sosial şəbəkədəki divarında yerləşdirdiyi videoda A.İsmayılov yazır:** "Bakı şəhərində kim nə vaxt, necə istəyirsə, yolları elə də bağlayır. Və bu yol bağlanmaları zamanı vətəndaşların çəkdikləri əziyyət heç vaxt nəzərə alınmır. Bakıda oyunlar, olimpiadalar,



Aslan İsmayılov



Anar Nəcəfli

formulalar keçirilir.Bu əlbəttə ki, biz Bakı sakinlərinə, vətəndaşlara çox narahatçılıqlar yaradır. Daha çox narahatçılıq Bakı şəhərinə, yol-təmir təsərrüfatına başçılıq edənlər tərəfindəndir. Bu yol Statistika dairəsindən Nərimanov heykəlinə çıxan yoldur. 2 həftədən çoxdur ki, yol hazırdır. Ancaq bağlıdır. Yaranan bir çox tıxacların səbəbi də məhz bu yolun bağlı olmasıdır".

**A.İsmayılov videomüraciətində qeyd edir ki, bağlı qalan əsas yola birləşən yollar da beton plitələrlə bağlanıb:** "Heç kim vətəndaşların onların belə özbaşına hərəkətlərindən əziyyət çəkdiklərini fikirləşmir".

**"Azəravtoyol" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli Yasamal rayonu, Abdulla Şaiq küçəsi 216 ünvanında bina sakinlərinin etiraz aksiyası keçirmələrindən xəbərdar olduğunu deyib:** "Bəzi saytlar yazırlar ki, "Azəravtoyol" yol bağlayıb. Əslində belə deyil. Orada layihə çərçivəsində bu işlər həyata keçirilir və həmin istiqamətdə binadan çıxış var idi, həmin çıxış bağlandı. Çünki həmin çıxış saxlanılsaydı, orada çoxlu bədbəxt hadisələr ola bilərdi. Həmin istiqamətdə təhlükəsizlik baxımından avtonəqliyyat vasitələrini çıxışı mümkün deyil. Binanın əsas giriş çıxış hissəsi bağlanmayıb, digər küçəyə çıxır. Binanın həyətinə giriş-çıxışın bağlanması absurddur. Bir istiqamət üzrə bağlanıb, bu da insanların təhlükəsizlikləri baxımından edilib".

**Xidmət rəhbəri hüquqşünas A.İsmayılovun yaydığı videoaya da baxdıqlarını söylədi.**

"Yol tam hazır vəziyyətə gətirilmədən açılanda vətəndaşlar şikayət edirlər ki, piyada zolağı yoxdur, filan nişan niyə görə qoyulmayıb, svetofor nəyə yoxdur? Orada səkilərdə işlər gedir, yol nişanlanması işləri həyata keçirilir, işıqlandırma sistemi qurulur. Orada bu gün də texnikalar işləyir, hərəkətin açılması və müəyyən hərəkət zolaqlarındakı dəyişiklik, nişanlanma xətlərində dəyişiklik, müəyyən yerlərdə genişlənmə işləri aparılır" -deyə A.Nəcəfli qeyd edib.

**A.Nəcəfli yaxın günlərdə işlərin yekunlaşacağını və yolun açılacağını bildirib:** "Hazırda orada gecə-gündüz iş gedir. Biz insanların narahatlıqlarını başa düşürük. Amma istəyirik ki, vətəndaşlar da bizi başa düşsünlər. Açıq hava altında, günün altında dayanmadan iş gedir. Tezliklə işin yekunlaşması və təhvil verilməsi üçün çalışırlar. Orada əvvəldən təsdiqlənən plana müəyyən dəyişikliklər edildi deyə müəyyən ləngimə olur. İnşallah, yaxın günlərdə həmin yol da təhvil veriləcək".

**A.Nəcəfli Novxanı çimərliyinin olduğu ərazidə aparılan təmir işləri haqda bunları dedi:** "Yolun yenidən qurulması planlaşdırılarkən aidiyyəti qurumlara - kommunikasiya xətlərinin çəkilişi ilə məşğul olan təşkilatlara müraciət edirik. Yol çəkilməzdən əvvəl su, kanalizzasiya, rabitə xətləri çəkilə, yenilənə bilər. Müraciətimiz də bununla bağlı olur ki, əgər belə işlər görüləcəksə, yol çəkilənə qədər görülsün. O istiqamətdə - Binəqədi-Novxanı yolunda da su-kanalizasiya xətlərinin çəkilişi işləri aparıldı. Bir qədər ləngimə oldu. Biz çalışırıq ki, işləri kompleks şəkildə, keyfiyyətli görək ki, gələcəkdə hər hansı bir problem olmasın. Yolun çəkilişindən sonra qazıntı işlərinin aparılmasını istəmirik. Ona görə də vaxt bir qədər artıq gedir".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 135 (6749) 24 iyun 2017

# Ərəb ölkələrindən Qətərə Türkiyə həmləsi

**Səudiyyə Ərəbistanı, Misir, BƏƏ və Bəhreyn Qətərlə yaranmış böhranı həll eləmək üçün 13 maddədən ibarət təklif irəli sürüblər. Ərəb ölkələri bəyan ediblər ki, təkliflər 10 gün ərzində yerinə yetirilərsə, münasibətlər qaydasına düşəcək, əks halda, Qətərə qarşı yeni sanksiyalar tətbiq olunacaq.**

## Körfəz ölkələrinin Qətərə 13 maddəlik ultimatumu Dohanı təcrid etməyə, bölgədə yeni gərginliyə xidmət edir

Tələblər Qətərin İranla əlaqələri dayandırması, Misirdə "Müsəlman Qardaşlar" (ixvan), Yəməndə Husilərə, Hizbullaha, İŞİD-ə verdiyi dəstəyi dayandırması, "əl-Cəzirə" telekanalını bağlaması və nəhayət, Türkiyənin Qətərdəki "əl-Rayyan" hərbi bazasını bağlamasını. Türkiyə ilə hərbi əməkdaşlığı dayandırmasını tələb ediblər. Ərəb ölkələrinin Qətərdən tələblərindən biri də adıçəkilən terror təşkilatlarının qeyd olunan ərəb ölkələrinə vurduğu maddi zərərlərin hesablanıb Qətər tərəfindən kompensasiya ödənilməsidir.

Ərəb ölkələrinin 13 maddəlik təklifi Küveyt tərəfindən Dohaya çatdırılıb və 10 gün vaxt verilib. Türkiyənin müdafiə naziri Fikri İşık ərəb ölkələrindən Qətərlə hərbi əməkdaşlığı dayandırmaqla bağlı hər hansı müraciət almadıqlarını deyib. Eyni zamanda bu tələbi tənqid edib.

Qeyd edək ki, ötən gün Türkiyə ordusunun 23 hərbçisi 5 zirehli texnika ilə birlikdə Qətərə daxil olub. Bununla da Qətərdəki Türkiyə hərbçilərinin sayı 111 nəfərə çatıb. Ərəb ölkələrinin Qətərdən tələbləri sırasında Türkiyə ordusunun adadan çıxarılmasının da olması bir neçə istiqamətdən diqqət çəkicidir. Birincisi, hər nə qədər Türkiyə açıq şəkildə Qətərin tərəfini tutsa da, Ankaranın digər ərəb ölkələri, xüsusən də Səudiyyə Ərəbistanı ilə yaxın müttəfiqlik əlaqələri var. İki ölkə arasında hərbi, siyasi və iqtisadi sahədə geniş əlaqələr formalaşıb, xüsusən də son illərdə regional siyasətdə Türkiyə və Səudiyyə Ərəbistanı ortaq mövqedən çıxış ediblər. Bu səbəbdən də Ankara ilk gündən Qətəri müdafiə etsə də, ona qarşı olan ərəb ölkələrinin üzərinə də getməyib, hansısa ittiham irəli sürməyib.

Ancaq indi ərəb dövlətlərinin Qətərdən tələbləri arasında Türkiyə bazasının ləğvini tələb etməsi həm də Ankaraya qarşı soyuq münasibətin göstəricisidir. Yəni körfəz ölkələri üstüörtülü şəkildə deyirlər ki, Türkiyənin Qətərdə olmasını, bu işə qarışmasını istəmirlər. Daha təhlükəli versiya budur ki, körfəz ölkələri Qətərə qarşı savaş açmaq istəyirlər, bu tələblər savaşa səbəb olacaq. Çünki tələblərə baxdıqda, cüzi istisnalarla onların yerinə yetirilməsi Qətər üçün qeyri-mümkündür. Məsələn, Qətərin Husilərə və ya Hizbullaha dəstəyi çox şübhəlidir, bunu sübut etmək mümkün deyil. Eyni şəkildə İŞİD-ə də dəstək verməsi də ciddi fakt tələb edən iddiadır. "əl-Cəzirə"nin qapadılması da prinsip etibarı ilə reallaşması mümkün olmayan tələbdir. Çünki Qətər ölkənin az qala tanınma brendinə çevrilmiş, dünya xəbər bazarında aparıcı yeri olan və Qətərin gücünü təmsil edən telekanal şəbəkəsini bağlamaz.




Qətərin İranla diplomatik əlaqələri kəsməsi prinsip olaraq mümkün görünsə də, körfəzdə müştərək qaz yataqları olan, demək olar ki, qonşu olan İranla əlaqələri kəsmək ciddi problemlərə səbəb ola bilər. Yerdə qalan variant Türkiyə ordusunun çıxarılması tələbi heç şübhəsiz ki, Ankara ilə körfəz ölkələri arasında münasibətləri daha da soyudacaq. Doğrudur, hazırda Ankara Səudiyyə Ərəbistanı ilə yaxşı münasibətləri qoruyub saxlamağa çalışsa da, məlum olduğu kimi, Misirlə münasibətlərdə ciddi problemlər mövcuddur. BƏƏ ilə isə açıq deyilməsə də, soyuqluq vardır. Belə aydın olur ki, Türkiyə ordusunun çıxarılması tələbi yalnız Qətərə deyil, həm də Türkiyəyə mesajdır.

Çox güman ki, Qətər bu tələbləri yerinə yetirməyəcək. Ancaq ortada sərt tələblər var və Qətər faktiki olaraq terrorizmin sponsoru kimi göstərilib. Bu tələblər əslində savaş səbəbidir. Çünki Qətər faktiki olaraq Yəməndən Suriyaya qədər regiondakı bütün silahlı münaqişələri himayə etməkdə ittiham olunur. 10 gündən sonra Səudiyyənin Qətərə müharibə elan edəcəyi, yoxsa təcrid siyasətinin daha da dərinləşəcəyini indidən demək çətindir. Ancaq bir şey aydındır ki, bu təzyiqlərin sonunda Qətərin əl-qolunu bağlamaq, onu prosesin arbitri kimi çıxış edən ABŞ-dan asılı vəziyyətə salmaq siyasəti gələcək. Qətərin davam gətirməsi indi Yaxın Şərqin daha ağır böhrandan xilas olması deməkdir. Ancaq Qətər bu təzyiqlərə davam gətirəcəkmi? Bunu 10 gün sonra biləcəyik.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# ABŞ-ın "kürd sevgisi": Ağ Evin dəstəyi arxasında nə durur?

**Amerikanın hər zaman kürdlərə dəstək verdiyi barədə xəbərlər dolaşır. Xüsusilə Birləşmiş Ştatların Suriya və İraq kürdlərinə böyük yardım etdiyi bildirilir. Bəzi zamanlarda isə ABŞ-ın dəstəyi açıq şəkildə üzə çıxıb. Bu da rəsmi Vaşinqtonla Türkiyə başda olmaqla, digər dövlətlər arasında münasibətlərin bəzi vaxtlarda soyumasına səbəb olub.**

Hər şeyə rəğmən, ABŞ kürdlərə dəstəyini əsirgəmir. Hətta sübut olunmasa da, bəzi vaxtlarda ABŞ-ın Türkiyədəki kürdlərə də gizli yollarla yardım etdiyi barədə iddialar səslənib. Dünyanın supergücünün kürdlərə nə üçün dayaq durduğu hər zaman müzakirə olunmaqla yanaşı, suallar da yaradır. Məlumdur ki, kürdlərin quracaqlarını xəyal etdikləri dövlətin ərazisinə Türkiyə daxil, bir sıra ölkələrin ərazilərinin bir hissəsi daxildir. Sanki Birləşmiş Ştatlar bu ölkələri parçalamaq, yaxud onları öz təsir dairəsində saxlamaq üçün "kürd kartı"ndan istifadə edir.

**Politoloq Elçin Mirzəbəyli Ağ Evin "kürd sevgisi"nin bir sıra səbəblərinin olduğunu düşünür:** "Əvvəla, kürdlərin dövləti yoxdur və təbii ki, dövlət maraqları da yoxdur. Deməli, onların bu və ya digər dövlətin, indiki halda ABŞ-ın dövlət maraqlarında heç bir ön şərt irəli sürmədən, çox məhdud imtiyazlar müqabilində yer alması mümkündür. Amma Türkiyə ilə bağlı məsələ fərqlidir. Türkiyə nəhəng bir imperiyanın varisidir. Dövlət kimi böyük hədəfləri və maraqları var. Bu maraqlar bir çox hallarda Birləşmiş Ştatların hədəfləri ilə üst-üstə düşməyə bilər. Türkiyənin bu və ya digər layihədə yer alması üçün onunla hesablaşmaq lazımdır. Bu baxımdan, da Yaxın Şərq layihəsində kürdlərə daha çox üstünlük verilir. Onlar daha az şey istəyirlər, istənilən layihədə ön şərt irəli sürmədən iştirak edirlər. Kürd qruplarının dövlət maraqlarını ifadə edən vahid idarəçilik sistemləri olmadığı üçün onları idarə etmək, yönəltmək asandır. Kürdüstanın yaranmasını birmənalı şəkildə Türkiyənin parçalanmasına səbəb ola biləcək amil kimi dəyərləndirmək, zənnimcə, doğru deyil. ABŞ-ın bölgədə güclü və vahid kürd dövləti yaratmaq niyyəti də yoxdur. Əksinə, Vaşinqton çalışacaq ki, bu faktordan həm ərəb dövlətlərinə, həm də Türkiyəyə qarşı hələ uzun illər istifadə edə bilsin. Digər tərəfdən, həm ABŞ, həm də region dövlətləri Türkiyəni güclü görmək istəmirlər. Əgər Türkiyə separatizm və terrorla bağlı bütün problemləri çözərsə, o zaman regionun şəriksiz liderinə, hətta qlobal gücə çevrilə bilər. Amerikalılar da, ruslar da, digərləri də kürdləri aldadacaqlar. Türkiyənin tarixinə diqqət yetirsək, biz Birinci Dünya müharibəsi və İstiqlal savaşı zamanı da oxşar proseslərin baş verdiyinin şahidi ola bilərik".



**Elçin Mirzəbəyli:** "Amerikalılar da, ruslar da, digərləri də kürdləri aldadacaqlar"



**Əhəd Məmmədli:** "Amerikadan da çox Avropa Kürdüstanın qurulmasında maraqlıdır"

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli müsəlman coğrafiyasına problem yaratmaq üçün ABŞ-ın bu cür siyasət yürütdüyünü bildirdi:** "Amerika ona görə kürd dövlətinin qurulmasına maraqlıdır ki, müsəlman coğrafiyasına yeni problemlər yaradıb, "Parçala hökm et" siyasətini davam etdirsin. İsrail də bunun üçün qurulmuşdu. İndi də eynən Kürdüstan qurmaqla İslam dünyasına yeni problemlər yaratmaq istəyirlər. İslam dünyasında özlərinə ən təhlükəli dövlət saydıqları Türkiyə üçün bu problemi yaratmaqla, Türkiyənin dirçəlməsinə imkan verməmək, Türkiyənin öz problemlərindən başının açılmamasını istəyirlər. Çünki Türkiyə müsəlmanların son xilafəti olan Osmanlının varisidir, Türkiyə ayağa qalxsa, onun ətrafına yenidən bütün müsəlman məmləkətləri yığışa bilər, bu da xristian və yəhudi dünyası üçün ən böyük qorxunc röya olmaqda davam edir. Ona görə Amerikadan da çox Avropa Kürdüstanın qurulmasında maraqlıdır. Kürdüstan qurulsa da, ilk növbədə, İraq və Suriya ərazisində qurulacaq. Belə olduqda isə indiki halda Türkiyə parçalanmayacaq. Çünki Türkiyə elə zəif dövlət deyil ki onu belə asanlıqla parçalaya bilsinlər. Amma gələcəkdə belə bir dövlətin Türkiyənin burnunun dibində olması Türkiyə üçün ciddi problemlər yarada bilər. Amma indinin özündə belə Kürdüstanın qurulması asan məsələ deyil , çünki Türkiyədən əlavə buna qarşı ərəb ölkələri və İran çıxacaq. Ərəb ölkələri öz əraziləri hesabına yeni bir İsrailin qurulmasına heç vaxt razı olmazlar. İran da eynən. Çünki bu yeni dövlət gələcəkdə İranda kürdlər yaşayan ərazilərə iddia edə bilər. Bütün bunları nəzərə alaraq Qərbin bu köhnə-yeni planının baş tutması, məncə, o qədər də inandırıcı görünmür. Və əsas da Türkiyə artıq əvvəlki Türkiyə deyil ki, burnunun dibində nə istəsən edə biləsən".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 135 (6749) 24 iyun 2017

**ABŞ prezidenti Donald Tramp son zamanlar demək olar ki, bütün çıxışlarında müxtəlif dövlətləri sərt şəkildə hədələyir. Amerikanın yeni prezidentinin çıxışlarından sanki müharibə alovu yağır. Aqressiya, hədə sürətlə artmaqdadır. Vəziyyət bu şəkildə davam edəcəksə, D.Trampın dünya üçün get-gedə təhlükəyə çevrilməkdə, dünyanı böyük müharibəyə sürükləməkdə olduğunu söyləmək mümkündürmü?**

# Tramp dünya üçün təhlükəyə çevrilir

## Hər çıxışından müharibə saçan prezidentin arxasında hərbi sənaye kompleksinin dayandığı iddia edilir



**Politoloq Əhəd Məmmədli** hesab edir ki, Donald Tramp fərqli siyasi tiplərdəndi və hər gün dünya buna bir daha əmin olur. Bu, əvvəlcədən aydın məsələ idi ki, Tramp hakimiyyətə gəlsə ənənəvi amerikan siyasəti dəyişə bilər: "Ənənəvi amerikan siyasəti üzdə gülüb, arxada fərqli işlər çevirməkdir. Donald Tramp isə arxada deyil, elə üzdə işlər çevirəcəyini, nə edəcəyini, kimlərə qarşı necə düşüncədə olduğunu açıq bəyan edir. Əslində Tramp kifayət qədər ağıllı adamdır ki, Amerikanı böyük müharibəyə sürükləməsin. İkincisi, Amerika ilə böyük müharibə edəcək hazırda dövlət də yoxdur. Trampın prezident seçilməyinə ən çox sevinən Rusiya olmuşdu, ruslar indi də ümidlidir Trampla normal münasibətlər qurmağa. Ancaq Tramp da hər bir ABŞ prezidenti kimi ölkəsinin maraqlarını heç kəsə qurban verən deyil. Sadəcə, bunu daha açıq siyasətlə büruzə verir. Bu da Tramp ənənəvi amerikan siyasi liderlərindən olmadığı üçün belədir. Qərb və dünyada Ərdoğan, Putin, Tramp tipli siyasətçilər dəbi müəyyənləşməyə başlayıb. Bu cür gedişata da hər kəs hazır olmalıdır".

**AMİP katibi Əli Orucov isə hesab edir ki, Trampın yürütdüyü siyasətdən belə nəticəyə gəlmək olar ki, onun arxasında duran güc ABŞ-ın hərbi sənaye kompleksidir. Hərbi sənaye kompleksinin istəyi ilə Ağ Ev ənənəvi siyasətini və diplomatiyanı ikinci plana keçirib. Ona görə də Trampın prezident seçilməsindən qısa sürə sonra beynəlxalq siyasət və qlobal problemlər bir qədər də gərginləşməkdədir, silahlara daha çox ehtiyac yaradılır:** "Hətta ABŞ-ın öz müttəfiqləri ilə də sərt tonda siyasətə keçdiyini müşahidə edirik. Xüsusən Almaniya ilə ABŞ arasında münasibətlər müttəfiqlikdən daha çox rəqabətə söykənməkdədir. Ağ Ev Avropa Birliyinin yenilənməsinə və möhkəmlənməsinə də isti yanaşmır. Ənənəvi rəqibləri olan Rusiya və Çinlə gərginlik, geopolitik ziddiyyətlər təhlükəli hal alıb. Hətta bəzi regionlarda, xüsusən də Fars körfəzində Suriyada, Rusiya və Cənubi Çin dənizində Çinlə yaranmış fikir ayrılıqları və dünyanın yenidən bölüşdürülməsi uğrunda artan ziddiyyətlər ABŞ rəhbərliyini daha da aqressivləşdirib. Tramp ABŞ-ın beynəlxalq siyasətdə getdikcə zəifləyən mövqelərini zorakı üsulla, silahla qaytarmaq xətti sərgiləyir. Eyni zamanda daxili basqılar artdıqca, ona qarşı aparılan araşdırmaların miqyası böyüdükcə çıxış yolu və diqqəti yayındırmaq üçün bəzi avantüraya əl ata bilər. Lakin Trampın qırmızı xətti keçməsinə, ABŞ-ın özünün milli maraqlarına ciddi zərbə vura biləcək addımlar atmasına imkan verilməz. Baxmayaraq ki, çağdaş dünyamız barıt çəlləyinə çevrilib, lakin bu, partlayışla nəticələnsə ABŞ-ın da bundan xilası və ziyan çəkməyəcəyi mümkün deyil".

❑ **Etibar SEYİDAĞA**

# Suriya münaqişəsinin taleyində ciddi dönüş

## Rusiya, ABŞ, Türkiyə və İran Suriyada anlaşdılar, islamçı qruplar meydandan çıxarılır, danışıqlar hökumət və dünyəvi müxalifət arasında aparılacaq

**Suriya münaqişəsinin həlli ilə bağlı gələn ay Astanada növbəti toplantı keçiriləcək. Ancaq bu toplantı öncəsi savaş cəbhəsində bir sıra ciddi anlaşmalar əldə olunub. Bu anlaşmalar Suriyada savaşın və ümumilikdə vəziyyətin ciddi dəyişməsinə gətirə bilər.**

Birinci anlaşma son zamanlar ciddi toqquşmaların davam etdiyi cənubdakı Dəra bölgəsi ilə bağlı olub. "Şərq əl-Ovsat" qəzetinin yazdığına görə, ABŞ, Rusiya və İordaniya arasında Suriya-İordaniya sərhədlərinin mühafizəsi ilə bağlı anlaşma əldə olunub. Anlaşmaya əsasən Suriya-İordaniya sərhədində 30 km dərinliyinə qədər Suriya ordusundan qüvvə olmayacaq və Suriya ordusu ilə Azad Suriya Ordusu arasında atəşkəs olacaq. Eyni zamanda anlaşmaya əsasən atəşkəs bölgəsində yerli şuralar təşkil olunacaq və bu bölgələrə humanitar yardımların gəlməsi təmin olunacaq. Bölgədə bütün ictimai və dövlət binalarında Suriya bayraqları asılacaq, İordaniya ilə sərhəd-keçid məntəqəsi Suriya dövlət orqanlarının nəzarətində olacaq, İordaniya və Suriya arasında nəqliyyat və ticarət əlaqələri bərpa olunacaq. Eyni zamanda tərəflər İŞİD-ə bağlı "Xalid ordusu" və ən-Nusra cəbhəsinə qarşı birgə mübarizə aparacaqlar.

Suriyada ikinci anlaşma nöqtəsi isə islamçı müxalifətin əsas mərkəzi hesab olunan İdlib şəhəri və ətraf bölgələrdir. Bu barədə isə Türkiyə prezidentinin sözçüsü İbrahim Kalın ötən gün yerli mediaya açıqlama verib. Kalın deyib ki, hazırda Suriyada əldə olunmuş razılığa əsasən yaradılmış 4 təhlükəsiz bölgənin hansı şəkildə və kimlər tərəfindən qorunması ilə bağlı Rusiya, Türkiyə və İran təmsilçiləri arasında danışıqlar gedir.

Onun sözlərinə görə, böyük ehtimalla İdlib bölgəsinə Türkiyə və Rusiya, Dəməşq ətrafına Rusiya və İran, cənubda Dəra bölgəsinə isə İordaniya və Amerikanın da daxil olduğu qrup nəzarət edəcək. Sözçü



deyib ki, bu mexanizmin əsas məqsədi atəşkəsi daha da möhkəm tutmaq məqsədi güdür. Onun sözlərinə görə, artıq İdlibdə nə qədər hərbçinin yerləşdirilməsi ilə bağlı müzakirələr aparılır və gələn ay Astana toplantısına qədər bir milyon əhalisi olan İdlibi nə qədər hərbçinin kim tərəfindən şəhəri mühafizə edəcəyi qərarlaşdırılacaq.

Qeyd edək ki, hazırda bilindiyi kimi, həm kürd qüvvələri amerikalıların dəstəyi ilə, həm də Suriya ordusu rusların dəstəyi ilə İŞİD-in Suriyadakı "paytaxtı" Raqqanı ələ keçirmək üçün irəliləyir. Ancaq ölkənin digər bölgələrində də döyüşlər davam edir. Bilindiyi kimi, ümumi bölgüyə əsasən 4 hərbi-siyasi qrup var. Bunlar Suriya hökuməti, şimal-şərq hissədə kürdlər - Suriya Demokratik Qüvvələri və PYD, şimalda İdlib və cənubda Dəra ətrafında müxaliflər adlanan Azad Suriya Ordusu, islamçı qruplaşmalar, o cümlədən "Əhrar əş-Şam", "Şamın Fəthi Cəbhəsi" və sair onlarla silahlı qruplaşmanın yer aldığı cəbhə və nəhayət, ölkənin əsasən mərkəz, Şərqi İraq sərhədinə doğru və qismən cənubda möhkəmlənmiş İŞİD.

Hazırda İŞİD və kürdlər arasında Raqqa uğrunda ciddi savaş gedir. Eyni zamanda Suriya ordusu da cənub hissədən Raqqaya yaxınlaşmağa çalışır. Çünki Raqqanın alınması strateji əhəmiyyətli şəhərin ələ keçirilməsi ilə yanaşı Suriyada böyük bir quru ərazini nəzarətə götürmək mənasına gəlir.

İŞİD-in sıradan çıxarılması ilə Suriyada hazırda əsas güc mərkəzi İdlib şəhəri olur. Çünki İdlibdə çoxlu sayda müxalif qüvvələr , o cümlədən islamçılar möhkəmlənib. Türkiyə və Rusiyanın İdlib mövzusunda anlaşması Suriyada münaqişə tarixində çox ciddi bir irəliləyiş hesab oluna bilər. İ.Kalının da açıqlamasından belə anlaşılır ki, İdlib və digər bölgələrlə bağlı anlaşmalar, o cümlədən yuxarıda qeyd etdiyimiz Dəra ilə bağlı razılaşma Suriyada radikal silahlı dinçi qrupların sıradan çıxarılması anlamına gəlir. Böyük ehtimalla silahlı qruplar ya Türkiyə üzərindən, ya da cənuba - İordaniyaya doğru çəkilib çıxmalıdır. Çünki Astana anlaşmasına əsasən Suriyada müxalif tərəf olaraq Azad Suriya Ordusu və onu təmsil edən dünyəvi müxalifət qalacaq. ən-Nusra və digər radikal dinçi qruplar sıradan çıxarılacaq və onlar anlaşmalara daxil edilməyəcək və onlara qarşı birgə mübarizə aparılacaq. Beləliklə, Suriyada meydanda faktiki olaraq Bəşər Əsədin rəhbərlik etdiyi hökumət, Türkiyə və Qərb ölkələrinin, Qətərin müdafiə etdiyi ASO və dünyəvi müxalifət, bir də ABŞ-ın dəstəklədiyi regional qüvvə olan kürdlər. Danışıqlar iki tərəf arasında aparılacaq, kürdlər üçünsə regional status müəyyən olunması üçün danışıqlar aparılacaq. Belə görünür ki, bu plan bir öncəki Astana görüşlərində razılaşdırılıb. Rusların hazırladığı plan məhz Suriyada 4 təhlükəsiz bölgənin yaradılması, kürdlərə status verilməsini nəzərdə tutur.

Bu plan eyni zamanda silahlı radikal qruplara xarici dəstəyin qarşısının alınması, onların məhv edilməsi və ya ölkədən çıxarılmasını nəzərdə tutur. Beləliklə, məlum olur ki, Astana planına əslində ölkələr ciddi planlarla gedir. Ancaq hazırkı bölgədəki siyasi vəziyyəti nəzərə alanda bu anlaşmaya maneələrin olması da ehtimal olunur. Çünki məlum olduğu kimi, Suriyada vuruşan islamçı qrupların bir qismi Qətər, bir qismi isə digər körfəz ölkələri tərəfindən dəstəklənib. Aydın məsələdir ki, Qətər və Türkiyə Suriyada ortaq hərəkət edir. Ancaq Səudiyyə Ərəbistanı və digər körfəz ölkələrinin Türkiyənin və Qətərin daxil olduğu həll planına razı olacağı inandırıcı deyil. Bu mənada mümkündür ki, qarşıdakı dövrdə planın icrasına bəzi islamçı qruplar ciddi müqavimət göstərsin. Yeri gəlmişkən, Qətər böhranından sonra bir sıra qruplaşmalar arasında silahlı insidentlər yaşanıb. Bu isə bu qruplaşmaların Qətər və Səudiyyə Ərəbistanına bağlı olması ilə izah olunur.

Lakin istənilən halda son gəlişmələr Suriya münaqişəsinin həlli ilə bağlı ciddi siyasi hadisə sayıla bilər. Bunun rəsmiləşməsi və yeni detalların üzə çıxması isə gələn ay Astanada baş verəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Dünyanın ən sərsəm tok şouları

## "Maşın şou" bunların yanında toya getməlidir…













**Bugünlərdə ölkədə ən çox müzakirə olunan mövzulardan biri də heç şübhəsiz ki, "Maşın şou"da baş verən qalmaqallar oldu. Amma əksər dünya ölkələrində buna bənzər, hətta daha qalmaqallı şoular yayımlanır. Məsələn, Rusiyada yayımlanan "Maşın şou"da iştirakçılar hətta bir-birinə qarşı şiddət tətbiq etməkdən çəkinmirlər. Bir-birini döyən, təpik, yumruq atan iştirakçılar az qala adiləşib.**

Dünyada da buna bənzər, hətta bundan daha absurd şoular olub. "Yeni Müsavat" onlardan bəzilərini sizin nəzərinizə çatdırır. Onlarla tanış olandan sonra "Maşın sou"ya az qala şükür edəcəksiz.

**1."Born in the Wild" ("Təbiətdə dünyaya gəliş")**

Təsəvvür etmək çətin olsa da, bəzi cütlüklər övladlarını vəhşi təbiətdə, həkimlərin iştirakı olmadan, yanlarında təkcə operator olmaqla dünyaya gətirməyə razıdılar. Ona görə də verilişlə bağlı fotokadrlar axtaranda xeyli əziyyət çəkdik. Daha çox doğum kadrlarının yer aldığı verilişin fotosessiyanı yayımlamaq senzuradan kənar olardı. Bu veriliş tamaşaçılar arasında da zaman-zaman ciddi narazılığa səbəb olub. Amma reytinqinin yüksək olması ona həyat pasportu verməyə kifayət edib.

**2. "Hoarders" ("Yığıcılar")**

Adından da göründüyü kimi, bu verilişə qatılanlar əllərinə gələn hər şeyi öz evlərinə yığmaları ilə fərqlənilər. Hər şeyi, amma hər şeyi... Proqram hər şeyi yığan, onları atmağa qıya bilməyən patoloji xəstələrin həyatını özündə əks etdirir. Verilişi izləyən hər bir sağlam insanda o ünvanı tapıb, ora getmək, hər şeyi təmizləmək, yığışdırmaq istəyi olur.

**3. "Duck Dynasty" ("Ördək sülaləsi")**

Görəsən, ilin-günün bu vaxtında ördəklər sayəsində milyonlar qazanmaq mümkündürmü? Bu veriliş sayəsində mümkündür. Bu veriliş ümumən məşhur "Sülalə" kult serialının veriliş versiyasıdır. Dram var, ailə var, neft yerinə isə sadəcə, ördəklərdir. Onlar yaşam uğrunda mübarizə aparırlar.

**4. "Cupcake Wars" ("Keks müharibələri")**

"Müharibə" sözü bir çox realiti-şoularda istifadə olunur. Bununla da veriliş yaradıcıları insanların diqqətini cəlb etməyə çalışırlar. Onların bəziləri həqiqətən də 20-ci əsrin ağır faciələrini xatırladırlar. Bu verilişdə də vəziyyət belədir: qaliblər pul mükafatı qazanır. Amma uduzanları mətbəx işləri üzrə islah düşərgələrinə yollayırlar. Tamaşaçılar da ümid edirlər ki, bu, sadəcə, qaliblərə veriləcək yüksək mükafata görə qoyulmuş sınaqdır. Yəni sonda iştirakçılar bişirdikləri keksləri, yeməkləri bir-birinin başına atıb, cəzalandırmağa çalışmayacaqlar.

**5. "I Didn't Know I Was Pregnant" ("Mən bilmirdim ki, hamiləyəm")**

Bu reality şour isə Amerikanın MTV-sində, ən yaxşı ənənələr əsasında hazırlanıb. Sözsüz ki, bütün qadınlar heç də hər zaman hamilə qalıb-qalmadıqlarından əmin olmurlar. Bu tərəddüdlər isə hamiləlik testi və ya həkimin yanına gedəndən sonra yekunlaşır. Amma və lakin... 9 ay boyunca hamilə olduğunu təxmin etməmək, orqanizmində nə baş verdiyindən xəbərsiz olmaq? Yüz faiz haqlısız - bu veriliş də, onların qonaqları da əsəbi zəif adamlar üçün deyil. Çünki heç də hər kəs belə bir səfeh qadınların iştirak etdiyi verilişi dinləmək və izləmək istəmir.

**6. "My Cat From Hell" ("Cəhənnəm pişiyi")**

Çoxdan bəridir, insanlara pişiklərin ən ideal ev heyvanları olmaları ilə bağlı fikir yedirilir. Bu verilişdə də insanlara ən çətin, ən aqressiv və idarəsi ən ağır olan pişiklər verilir. İnsanlar da onların qayğısına qalmağa, onlara baxmağa çalışır və beləcə qalib gəlirlər.

**7. "American Stuffers" ("Amerikan şprisləri")**

Bu isə taksidermiya prosesinin birbaşa şou materialına çevrilməsidir. Bura qatılan mütəxəssislər heyvan müqəvvası hazırlamaqla bağlı öz məharətlərini hazırlayırlar. Mütəxəssislər komandası tamaşaçılara həmin prosesin incəliklərini o qədər estetik təqdim etməlidilər ki, heç kəs kanalı çevirməyi ağlından belə keçirməsin. Bu verilişə insanlar öz ölüm ayağında olan heyvanlarını gətirir və onların müqəvvasının hazırlanmasını izləyirlər. Buna isə ürək dayanmaz.

**8. "Pawn Stars" ("Lombard ulduzu")**

Veqas - elə bir şəhərdir ki, burda istənilən an evlənmək olar. Çünki kilsələr sutkanın 24 saatı boyunca işləyirlər. Ona görə də üzük hər an insana lazım gələ bilər. Bəzən bir cütlük özünü o qədər təntimiş hiss edə bilər ki, üzük almaq üçün hər şeyini lombarda qoymaq istəyər. Bu veriliş də lombardçılara həsr olunub. Onların işinin özəlliyinə...

**9. "Parking Wars" ("Parkinq müharibələri")**

Dünyada avtomobillərin sayı gündən-günə artır. Bundan başqa, hər gün yeni qaydalar çıxmağa başlayır ki, maşını harada saxlamaq olar, harada yox. Elə sözügedən şou da insanların parkinq yerləri uğrunda mübarizəsinə həsr olunur. Kim bu mübarizədən, daha doğrusu, müharibədən üzüağ çıxdısa, qalib də o sayılır.

**10. "My Strange Addiction" ("Mənim qəribə asılılığım")**

Onsuz da ətrafımızda psix və xəstə xarakterli insanlar az deyil. Amma indi Amerika kanallarından birində üç mövsümdür ki, qəribə asılılıqları və ehtirasları olan insanlarla bağlı tok şou yayımlanır. Biri balış çeynəyir, bir başqası iki metrlik gəlinciyi olmadan həyatını təsəvvür etmir, o biri daim uşaq əmziyi gəmirir və ya benzin iyləyir.... Verilişin yaradıcıları buna baxmağı o kateqoriyalı tamaşaçılara məsləhət görürlər ki, onlar həyatlarında nəyinsə yerli-yerində olmadığını düşünürlər.

**11. "Storage Wars" ("Baxmadan götür ")**

Daha çox, daha çox müharibə! Şounun əsas ideyası ondan ibarətdir ki, iştirakçılara çoxdan bəri atılmış saxlama kameralarının açarı verilir. Hər kəsin ehtiyatda cəmi 5 dəqiqəsi olur və həmin müddət ərzində nə mümkünsə dəyərləndirib onu götürməlidir. Bu zamansa olduqca ağıllı tərpənmək lazımdır. Nə bilmək olar ki, üzdən olduqca mənasız görünən bir əşyanın gerçək dəyəri nədir, nədən ibarətdir.

**12. "Ax Men" ("Meşəqıranlar")**

Bu şou isə 5 tele-mövsüm davam edib. Adından da göründüyü kimi, burda iştirak edənlər meşəqırma işində iştirak edirlər. Ümumən isə şou meqapolislərdə güclü, əzələli kişilərin olmamasından şikayətlənən qadınlar üçündür. Onlar bu verilişə baxıb, özlərinə uyğun, bəyəndikləri meşə qıranı seçə bilərlər.

**13. "Extreme Couponing" ("Ekstrimal kuponlar")**

Şou indiki zaman üçün xüsusilə aktualdır. Çünki hazırda bizim hər birimiz heç olmasa ömründə bir dəfə aksiyalar üzrə kupon alıb. Bəziləri əllərində endirimli kuponlarla restoranlara, kinoteatrlara gediblər. Əgər sizin eviniz tualet kağızı rulonları ilə doludursa, şkafınızdan lazımsız paltarlar aşıb-daşırsa bu veriliş tam sizin üçündür. Çünki ora qatılıb da, sərfəli kuponlara evdəki lazımsız əşyalardan qurtulmaq mümkündür.

**14. "Doomsday Preppers" ("Dünyanın sonunu gözləyərkən")**

Bu şou sizin üçündür, əgər: 1) siz əminsiz ki, bir gün zombilər qəbirlərindən çıxacaqlar 2) siz qorxursuz ki, meşədə azacaqsız və qayıdanda da Yer üzündəki yeganə insanın siz olduğunu görəcəksiz. 3) sizə elə gəlir ki, çox yaxın zamanda yer üzündə nə qida, nə su, nə elektrik qalmayacaq, dünyanın sonu gələcək. Məhz bu cür düşünən insanlar üçün belə veriliş hazırlayıblar ki, onlar özlərini dünyanın ən son gününə hazırlasınlar.

**15. "Lady Hoggers" ("Ovçu xanımlar")**

Bu şouya baxanda sizə elə gələcək ki, qabanlar dünyada insanlıq adına ən böyük təhlükədirlər, beynəlxalq terrorizmin səbəbidirlər. Verilişin şüarı belədir: **"Bu, o qədər də böyük olmayan, amma dağıdıcı, qəddar varlıqlardır. Onlar kənd təsərrüfatını dağıdır, ev heyvanlarını məhv edir, xəstəliklərə səbəb olur, insanlara hücum edir. Amma nə yaxşı ki, bizi bu bəladan qoruyan boyalı və cazibədar amerikalı qadınlar var".**

**16. "Tanked" ("Akvarium biznesi")**

Bu isə siyahıdakı vizual olaraq ən cəlbedici şoulardan biri sayılır. Alimlər çoxdan sübut ediblər ki, balıqlar insanı sakitləşdirir. Məhz buna görə də bir çox insanlar bu verilişə sırf əsəblərini qorumaq, relaks olmaq məqsədilə baxır. Amma bütünlükdə bu şounun məqsədi akvarium biznesinin incəlikləri və onun öhdəsindən gəlməyin yolları barədədir.

**17. "Swamp Wars" ("Bataqlıq müharibələri")**

Adını müharibə qoyduqları daha bir şou da reytinq siyahısında heç də aşağı sıralarda dayanmır. Resept belədir: İnsanların zəhərli ilanların, ac heyvanların, yırtıcı və öldürücü həşəratların olduqları yerə göndərilər. Məqsəd onların bu ölüm-qalım mübarizəsindən necə çıxdıqlarını yoxlamaqdır.

**18. "Ice Road Truckers" ("Uzaq səfər sürücüsünün buzlu yolları")**

Necə etmək olar ki, uzaq yola yük maşını ilə çıxan sürücünün çətin sınaqlar qarşısında qoyasan? Bunun üçün ilk növbədə yolların buzlu olması şərtdir. Məhz bu halda həmin sürücünün nə qədər mahir olduğu üzə çıxacaq. Onun yaxınları isə ekran başında əllərini göyə açıb dua edəcək ki, iştirakçı sağ qalsın.

**19. "The Arrangement" ("Razılaşdırma")**

Bir çox insanlar güllərə, buketlərə baxır və bundan böyük zövq alırlar. Amma bəziləri onların hər birində bir dram görürlər. Əgər siz nə zamansa insanların çiçəklərə qarşı ciddi yanaşdığını bilmək istəyirsizsə, bu veriliş tam sizlikdir. Cəmi bir mövsüm sonra siz anlayacaqsız ki, bu güllərlə oyunlar təkcə iş deyil, həm də incəsənətdir.

**20. "Say Yes to the Dress" ("Xoşbəxtlik üçün paltar")**

Bu veriliş isə Rusiya kanallarında nümayiş etdirilir. Ərə getməyə hazırlaşan qızların ən sevimli verilişidir. Çünki bura qatılanlar qohumları, qayınana və baldızları ilə birgə, dava-dalaşın fonunda gəlin paltarı seçir, onu geyinir və gəlin olurlar. Ümumən isə bu verilişə qatılmağın qiyməti 5 min dollardan başlanır.

❑ **Sevinc TELMANQIZI**

# Dubayda uşaq oğurlamaqda ittiham olunan şəxs danışdı

## Davud Bağırzadə: "Sadəcə, məcburiyyət qarşısında qalaraq uşağımı özümlə birgə götürüb Azərbaycana gətirmişəm"

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay Əmirliyində Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUP DK) əməkdaşının adı qarışan qovğa haqda yazmışdıq. Dubay Əmirliyində bank sektorunda çalışan Qırğızıstan vətəndaşı Merim Beishekeyeva Azərbaycan vətəndaşı Davud Bağırovu onun azyaşlı övladını oğurlamaqda ittiham edir. İşdə AQUP DK-nın Uşaq problemləri şöbəsinin müdiri Cəmilə Bağırovanın adı da keçir. C.Bağırova D.Bağırovun bacısıdır.**

Ötən saylarımızdan birində dərc etdiyimiz "Dubayda oğurlanaraq Bakıya gətirilən uşağın işində yeni gəlişmə"

http://musavat.com/news/dubayda-ogurlanaraq-bakiya-getirilen-usagin-isinde-yeni-gelisme_447566.html

sərlövhəli yazıya D.Bağırzadə münasibətini açıqlayıb. Vəkili vasitəsilə redaksiyamıza təqdim etdiyi yazılı müraciətdə D.Bağırzadənin mövqeyi ifadə olunur:

"Keçmiş həyat yoldaşım, Qırğızıstan Respublikasının vətəndaşı Merim Beishekeyeva ilə müəyyən problemlərin yaranması, onun uşağımıza qarşı etinasızlığı səbəbindən münasibətlərimiz tamam pisləşdi və 2015-ci ildə ayrıldım. Birgə nikahımızdan 2012-ci ildə Nyu-York şəhərində Ceyla Bağırova adlı bir qızımız dünyaya gəlib. Uşaq anası ilə yaşadığı müddətdə baxımsız vəziyyətdə qalmış, hətta uşağın anasının Dubayda hotellərin birində əcnəbi



bir kişi ilə birgə olduğu müəyyən edilmiş *(əcnəbi kişi ilə münasibətlərini təsdiq edən səs yazısı və polis tərəfindən həmin məsələnin araşdırılmasını təsdiq edən sənəd də mövcuddur)*, uşaq isə yad bir qadının yanında saxlanılmışdır. Bütün bu səbəblərdən bir ata olaraq məcburiyyət qarşısında qalaraq uşağımı özümlə birgə götürüb Azərbaycana gətirdim, öz uşağımı Azərbaycana gətirmək, mənimlə birgə yaşaması necə uşaq oğurluğu sayıla bilər?

Bildirirəm ki, boşanma işimizə Dubay məhkəməsində baxılması ləngidiyindən, mən Bakı Şəhər Səbayel Rayon Məhkəməsinə nikahımızın pozulması və uşağımızın mənim himayəmdə saxlanması haqda iddia ərizəsi verdim. Məhkəmənin 28.04.2016-cı il tarixli qətnaməsi ilə nikahımız pozuldu və uşaq mənim himayəmdə saxlanıldı. Övladım mən və nənəsi ilə qaldığı müddət ərzində anası qətiyyən onunla maraqlanmamış, özü üçün yaşamışdır. Bu ilin fevral ayında Merim Beishekeyeva Azərbaycana gəlib və Abdulla Əfəndizadə adlı nümayəndə tutaraq, mənə qarşı Səbayel Rayon Məhkəməsinə "Uşaqla ünsiyyət hüququnun həyata keçirilməsinə dair" iddia ərizəsi verib. Bununla yanaşı, Merim Beishekeyeva və nümayəndəsi Abdulla Əfəndizadə şantaj, hədə-qorxu dolu və həqiqətə uyğun olmayan böhtan yazıları müxtəlif instansiyalara göndərməklə açıq-aşkar qanunsuz hərəkətlərə yol verib və hazırda bu hərəkətlərini davam etdirir".

**D.Bağırzadənin müraciəti bu sözlərdə davam etdirilir:**

"Abdulla Əfəndizadə reallıqdan, məhkəmə qərarından tam uzaqlaşaraq, ümumiyyətlə, uşaqla bağlı bütün məsələlərdə - ona Azərbaycanda doğum haqqında şəhadətnamənin verilməsində, həmçinin uşağın atasına verilməsi ilə bağlı məhkəmə qətnaməsində saxtakarlığa yol verilməsi iddiaları ilə çıxış edir, uşağın məndən alınıb anasına - Birləşmiş Ərəb Əmirliklərinə (Dubay) göndərilməsi məsələsinə qədər əlindən gələni edir. Heç düşünmür ki, ölkəmiz öz vətəndaşının digər ölkəyə verilməsinə yol verməz. Bu, ölkəmizin çox gözəl, nümunəvi siyasətidir.

Əfəndizadə yazıda yenidən absurd, yalan, imitasıyaedici məlumatlar qeyd etmiş, məhkəmə tərəfindən qəbul edilən qərarlara şübhə ilə yanaşmış, onların qanunsuz olduğunu göstərmişdir. Qeyd etməliyəm ki, ölkəmizdə qərarlar qanuni yolla qəbul edilir, eyni zamanda qeyd olunan bu məsələdə də qəbul edilən qərarlar huquqi çərçivədə aparılmışdır. Məhkəmə prosesləri açıq və şəffaf şəkildə aparılmışdır".

**D.Bağırzadə hesab edir ki, uşağın anasını razılığı olmadan Dubaydan Türkiyəyə, oradan isə Azərbaycana gətirməsi onun daxili ailə məsələsidir:** "Bunun mediaya bu formada çıxarılması düzgün və etik deyil. Mən hansısa məşhur bir insan deyiləm ki, ailə və ailədaxili məsələm publik olaraq yayılsın. Bunu öz maddi maraqlarını güdərək edən insanlar mütləq şəkildə cəzalandırılmalı və bu hərəkətlərin qarşısı alınmalıdır. Uşaq mənim övladımdır, mən Azərbaycan Respublikasının vətəndaşıyam. Belə olan halda necə ola bilər ki, öz uşağım ABŞ vətəndaşı olsun və mən onu oğurlayaraq Azərbaycana gətirim? Təbii ki, özünü "vəkil" adlandıran A.Əfəndizadə bunu daha yaxşı anlayır, daha çox sensasiya, maddi maraqlar onları düşündürdüyü üçün bu cür çirkin yollara əl atır. Həmçinin bir daha qeyd edirəm ki, bu məsələdə dövlət qurumunda çalışan bacımın adını dəfələrlə hallandırır. Məqsəd isə bu yolla mənə və ailəmə təsir etmək, həmçinin bacımın işlədiyi dövlət qurumunun adına ləkə yaxmağa çalışmaqdır".

**D.Bağırzadə qeyd edir ki, Bakı Şəhər Səbayel Rayon Məhkəməsinin 28.04.2016-cı il tarixli qətnaməsi ilə M.Beishekiyeva ilə nikahı pozulub və azyaşlı Ceyla Bağırova onun himayəsində saxlanıb:** "Həmin qətnamədən qarşı tərəf şikayət versə də, şikayət Bakı Apelyasiya Məhkəməsinin 15.03.2017-ci il tarixli qərardadı ilə qeyri-mümkün hesab edilmişdir. Qətnamə hazırda qanuni qüvvədədir. Bundan başqa, "doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin etibarsız hesab edilməsi" haqda Beishekeyevanın iddia ərizəsi 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 05.06.2017-ci il tarixli qərarı ilə rədd edilmişdir. Göründüyü kimi, bütün məhkəmə instansiyaları yekun məhkəmə qərarlarını mənim lehimə çıxarmışlar. Bütün məhkəmə qərarlarını şübhə altına almaqla Abdulla Əfəndizadə AR məhkəmələrinə açıq-aşkar hörmətsizlik edir və KİV-də əsassız ittihamlar irəli sürür. Bununla mənim və digər şəxslərin konstitusion hüquqları pozulmuş olur ki, belə hərəkətlər özünü hüquqşünas adlandıran şəxsə yaraşmaz".

**❑ E.MƏMMƏDƏLİYEV**

**İsrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə! XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ! DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**

**Elan**

**Cəfərov Arif Bəxtiyar oğlunun adına olan bağ sənədi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 135 (6749) 24 iyun 2017

# Dünyada ana südü əleyhinə aparılan kampaniyada biznes maraqları

**Son günlər dünya mətbuatında ana südünün zərərli olması ilə bağlı yazılar dərc olunmaqdadır. Belə ki, Qərb alimlərinin iddialarına görə, bəşər övladının yarandığı gündən qidalandığı, "Qurani-Kərim"də belə tərif edilən ana südü əslində zərərli imiş.**

## Pediatr Vaqif Qarayev: "Ana südü qədər böyüyən orqanizm üçün faydalı qida yoxdur..."



İddialara görə, yeni ana olmuş qadının südündə yüzlərlə mikroorqanizm, zərərli bakteriyalar var. Qərb alimləri bununla da ana südünün əvəzinə daha təhlükəsiz və strelizə olunmuş alternativ uşaq yeməklərini məsləhət görürlər.

Qeyd edək ki, ötən illərdə Amerikada da bu cür iddianı əks etdirən "Breats" ("Süd vəziləri") adlı kitab dərc olunmuşdu. Kitabın müəllifi olan jurnalistin iddiasına görə, ana südü özündə zərərli maddələr ehtiva edir. Onun qeydlərinə görə, ananın süd vəziləri südün tərkibindəki zərərli maddələri özündən saxlayır, bir müddət sonra isə həmin zərərli maddələri süd vasitəsilə körpəyə ötürmüş olur.

Bəzi araşdırmalara görə isə ana südü uşaqda dehidrasiya (susuzluq) yaradır. Digər ağlasığmaz iddiaya görə isə ana südünün tərkibində qadın hormonları çox olduğu üçün oğlan uşaqlarında sonradan cinsi problemlər yaranır, biseksuallıq riski artır. Bəs ana südünə qarşı bu cür kampaniya nədən irəli gəlir?

Maraqlıdır ki, bu günə qədər alimlər ana südünün körpələr üçün çox vacib və zəruri olduğunu, körpəni bir çox təhlükəli xəstəliklərdən qoruduğunu, bunun üçün də ilk 6 ayda mütləq şəkildə körpələrin yalnız ana südü ilə qidalanmasını məsləhət gördüyü halda bu cür iddiaların ortaya çıxması anlaşılmaz qalır. Mütəxəssislər həmçinin bildirir ki, ana südü təkcə körpə üçün deyil, həm də ana üçün çox əhəmiyyətlidir. Belə ki, araşdırmalara görə, körpəsini təbii yolla qidalandıran qadınlarda süd vəzisi xərçənginə əmizdirməyən qadınlara nisbətən 25% daha az rast gəlinir. Ümumdünya Səhiyyə Təşkilatı öz hesabatlarının birində qeyd etmişdi ki, süd verən qadınlar əmizdirməyənlərlə nisbətdə daha şux, qamətli, sağlam və uzunömürlü olurlar.

Yerli ekspertlər bildirir ki, dünyada gedən bu cür kampaniyanın əsas məqsədi süni uşaq qidalarının satışının artırılması və yaxud qlobal dairələrin zombiləşdirmə, dünya əhalisinin azaldılması, müəyyən xalqların genetik təcavüzə məruz qoyulması ilə bağlıdır.

**Pediatr Vaqif Qarayev mövzuya bu cür şərh bildirdi:** "Son vaxtlar təbabəti biznes poliqonuna çeviriblər. Böyük ehtimalla, bunlar süni qida industriyasinin sifarişi ilə yazilir. O yazandan soruşmaq lazimdir ki, sən ana südü əmdinsə, niyə biseksual və ya "mavi" olmadin? Cəfəngiyyatdır! Texnologiya nə qədər inkişaf etsə də, ana südünün tərkibinə yaxin heç nə istehsal edə bilməyəcəklər! Məsələnin mənəvi-psixoloji tərəflərini bir kənara qoyaq, bütün yeni doğulan canlıları (məməli heyvanları) anası qidalandırır. İnsanı ən ali canlı hesab etsək, necə olur ki, insan südü zərərli olur?! Ana südü qədər böyüyən orqanizm üçün faydalı qida yoxdur! Həm uşağın fiziki inkişafında, həm də xəstəliklərdən qorunmasında ana südü əvəzsizdir. Bunu gərək hamımız anlayaq. Gərək biz də, media da ana südünün təmənnasiz təbliği ilə məşğul olaq. Onda uşaqlar birmənalı olaraq sağlam böyüyəcək".

❑ **Xalidə GƏRAY**

# Taksi qiymətləri - bizdə və dünyada

## Bakıda eyni istiqamət üzrə müxtəlif qiymətlərin səbəbi; dünyada ən ucuz taksi Çində, ən bahalısı isə İngiltərədədir

**Əvvəllər harasa təcili getmək istəyəndə yol kənarında sıra ilə düzülən taksilərə yaxınlaşır və mənzil başına bizi neçəyə aparacağı ilə maraqlanıb qiymət müzakirəsi edirdik. Artıq bir neçə ildir ki, durum fərqlidir. İndi paytaxtda istənilən qədər taksi dayanacaqları var və biz bir telefon zəngi ilə onları çağıra, hətta əvvəlcədən qiyməti də öyrənə bilirik.**




Amma bir şey var ki, eyni istiqamətə hərəkət edən bu taksilərin qiyməti də bir-birindən fərqlənir. Biz də qiymət fərqini bilmək üçün bir neçə taksi dayanacağına zəng edib eyni istiqamətə olan qiymətlərlə maraqlandıq. İstiqamət olaraq da "Neftçilər" metrosundan "Sahil" metrosuna qədər olan ərazini seçdik.

İlk öncə "Ekonom" taksi bizi 5 manat 80 qəpiyə, "189" taksi 7 manat 20 qəpiyə, "Güvən" taksi 6 manata, "Taksin 24" isə 6 manat 40 qəpiyə aparacağını dedi. Göründüyü kimi, eyni istiqamətə taksi xidmətinin qiymətləri arasında 20 qəpik-3 manat arasında fərq var. Bir sıra taksi duraqları isə müştəri cəlb etmək üçün müxtəlif kampaniyalar keçirirlər. Məsələn, "Güvən" taksi qayınanası ilə bayramlaşmağa gedən gəlinlərə 10 faiz endirim edir. Beləcə, "Güvən" taksidən bildirdilər ki, əgər "Neftçilər" metrosu yanından "Sahil" metrosu yanına 6 manata aparırlarsa, bu kampaniya və 10 faiz endirimlə 5 manat 40 qəpiyə gedə bilərsiniz. Bu cür dayanacaqların taksi sürücüləri onlara əslində qəpik-quruş pul qaldığını deyirlər.

**"Ekonom" taksi sürücüsü Murad Əliyev boş vaxtlarında bu işlə məğul olduğunu, ancaq ona elə də sərf etmədiyini dedi:** "Mən özüm dövlət işində işləyirəm. Ələvə iş olaraq "Ekonom"a yazılmışam. Axşam 6-dan sonra öz maşınımla taksi fəaliyyəti göstərirəm. Biz burada faizə işləyirik. Məsələn, kimisə harasa 6 manata aparıramsa, oradan mənə 4 manat qalır ya yox. O da bəzən heç benzinə bəs etmir. Bəzən taksini elə yerə çağırırlar ki, orada saxlamağa yer olmur. Beləcə, cərimə yazılır. Bundan əvvəl də başqa taksi dayanacağı ilə işləyirdim. Əvvəl işlədiyim yerdə uzaq məsafələri, pulu çox yazılacaq müştəriləri digər sürücülərə verirdilər. Onlardan bizim fərqimiz maşınlarına həmin taksi durağının reklamını yapışdırmasıdır. Məsələn, mən yapışdırmadığım üçün az məsafələr olanda mənə deyirlər. Əslində elə də sərf edən iş deyil. Ancaq əlacsızlıqdan nə edək".

Amma yol kənarında dayanan taksilərlə müqayisə etdikdə sifariş əsasında gələn taksilərin daha sərfəli olduğunu deyə bilərik. Ümumilikdə taksilərin tarixinə nəzər salsaq ilk dəfə insanları pul ödəmək qarşılığında daşıyan şəxsin fransalı sahibkar olduğunu görərik. Bu, 18-ci əsrdə baş verib və o zaman nəqliyyat vasitəsi qismində atlar qoşulmuş karetdən istifadə olunub. Belə ekipajlar "Fiakr" adlanıb. Arabalı taksilər Qədim Romada da mövcud olub. Arabanın üzərində xüsusi "taksometrlər" də quraşdırılmışdı və bu taksometr adi bir çanaq idi. Təqribən hər 200 metrdən bir bu çanağa bir daş atılırdı. Taksi xidmətinin haqqı isə mənzil başına çatdıqda çanaqdakı daşların sayına görə təyin edilirdi.

Rusiyada isə ilk taksi 1907-ci ildə fəaliyyətə başlayıb. Moskvada yaşayan hansısa bir şəxs öz avtomobilinə "Arabaçı" yazısı olan lövhəcik bərkidib. 20 il sonra artıq şəhərdə 200 belə avtomobil hərəkət etməyə başlayıb. Hazırda dünyada yeganə taksi muzeyi Moskvadadır. Bu muzeydə müxtəlif dövrlərdə bir çox ölkədə istehsal olunan avtomobillər sərgilənir. Meksikanın paytaxtı Mexiko şəhəri fəaliyyətdə olan taksilərin sayına görə rekord vurur. Hər gün Meksika paytaxtında 60 mindən çox taksi xəttə çıxır.

Əksər dövlətlərdə indinin özündə belə istifadə olunan taksilərin xüsusi rəngə boyanması metodu təxminən 60 il bundan əvvəl düşünülüb. Taksi üçün sarı rəng hələ 20-ci əsrin əvvəlində "Yellow Cab" şirkəti tərəfindən seçilmişdi. Şirkət sırf taksi fəaliyyəti ilə məşğul olması üçün avtomobillər istehsal edirdi. Avtomobillər üçün sarı rəngin seçilməsində səbəb sadə idi. Belə ki, sarı rəng uzaqdan daha aydın görünürdü. 1950-ci illərdə isə taksilər üçün xüsusi xarici fərqləndirici əlamət olan "şahmat lövhəsi" və yaşıl işıq yaradıldı.

Dünyanın ən bahalı taksisi İngiltərədədir. Bu reytinqdə ikinci pillədə İtaliya, üçüncü pillədə Almaniya qərarlaşıb. Dünyada ən çox Moskva taksiləri gəlir gətirir. Bir il ərzində taksi sürücüləri ümumilikdə 2,5 milyard dollardan çox pul qazanır. Lakin qanuni şəkildə rəsmiləşdirilən qazanc bu məbləğin cəmi 1/5-ni təşkil edir.

Dünyada ən bahalı taksisi London kebləridir. Bu əbəs yerə deyil. Belə ki, bu taksinin hər bir sürücüsü Londonun bütün küçələrini əzbər bilir. Belə olmasa, o, işə götürülmür. Ən ucuz taksi isə Çindədir. Cəmi 10 dollar ödəməklə onlarla kilometr yol keçmək olar. Çin taksilərinin daha bir xüsusiyyəti isə ondan ibarətdir ki, sürücülərin demək olar ki, yarısını qadınlar təşkil edir. Finlandiyada isə taksi sifarişlərinin demək olar ki, yarısı internet vasitəsilə həyata keçirilir. Venesiya, Yeni Zelandiya və Hollandiyada isə su taksiləri geniş yayılıb.

Hazırda hava taksiləri də populyarlıq qazanmağa başlayıb. Çili isə ən qeyri-adi taksilərə sahibdir. Bu taksi - inəklərdir. Vyetnam da Çilidən geri qalmır və burada getmək istədiyiniz yerə fil üzərində getmək təklif edilir.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
Son səhifə
N 135 (6749) 24 iyun 2017



## ABŞ-da üzərində prezidentlərin şəkli olan çimərlik paltarları satılır

Amerikanın "Beloved Shirts" kampaniyası üzərində ABŞ prezidenti Donald Trampın şəkilləri olan stilli çimərlik paltarları satır. Bununla bağlı "The Telegraph" qəzeti geniş yazıb. İnternet mağazanın məhsulları sırasında həmçinin üzərində Rusiya prezidenti Vladimir Putinin, eləcə də aktyor Nikolas Keycin şəkilləri olan çimərlik paltarları da var. Məhsullarla bağlı onların satıldığı internet saytında qeyd olunub ki, bu çimərlik paltarları insanların bədən quruluşunu olduqca sərfəli formada üzə çıxarmağa hesablanıb. Bu çimərlik kostyumlarının qiyməti 49,95 dollar təşkil edir. Hər bir çimərlik paltarı əl işi sayılır, ona görə də onu geri qaytarmaq olmaz. Bu çimərlik paltarından satın alan Cenna adlı alıcı yazıb ki, "Bu məhsul mənim bədənimi güclü və möhtəşəm edir".

Amma bu tapıntıdan narazı olanlar da var. Belə ki, çox adam bunun ucuz reklam, haqsız rəqabət olduğunu yazıb. Onlar eyni zamanda ""bu fotolar mənim yuxumu qarışdırıb və məni kabus olaraq təqib edir" deyirlər.

Daha öncə firma üzərində kişi sinəsinin türkləri olan çimərlik paltarı da istehsal etmiş və böyük populyarlıq qazanmışdı. Ümumiyyətlə, "Beloved Shirts" üzərində qeyri-adi şəkillər olan geyim məsələsində ixtisaslaşıb. Onlar adəti üzrə üzərində multfilm personajları, pişik, pitsa, suşi və kolbasa fotoları olan köynək, pijama və geyimlər istehsal edirlər.

# Həftədə 3.5 saat kitab oxuyan adam.... 2 il artıq yaşayır



Araşdırmalara görə, hər gün ən azı yarım saat kitab oxuyan adam öz ömrünü bir neçə dəqiqə uzatmış olur. ABŞ-ın nüfuzlu Yaley Universitetinin alimləri 50 yaşdan yuxarı 3700-ə qədər insan arasında apardıqları təcrübələrdə belə qənaətə gəliblər ki, həftədə 3,5 saatdan çox kitab oxuyan adamlar başqalarına nisbətən ən azı 2 il çox yaşayır. Alimlər kitab mütaliəsinin zehni fəaliyyəti aktivləşdirməsi və onu sağlam saxlaması nəticəsində insan ömrünü bir neçə il uzatmağa qadir olduğunu qeyd edirlər. Onların fikrincə, iki il minimal başlanğıc həddidir. Daha çox kitab oxuyanlar ömürlərini bir o qədər də artıra bilərlər. Lakin bu çox nisbi məsələdir. Təbii ki, başqa fiziki xəstəliyi olan adamın nə qədər kitab oxumasından asılı olmayaraq başqalarına nisbətdə az yaşaması realdır. Yaley Universitetinin alimləri kitab mütaliəsinin insana təsirinin başqa yönlərini də araşdırıblar. Mütəxəssislər hətta elektron kitabla adi kitabın insana göstərdiyi təsirlər arasındakı fərqləri də müəyyən ediblər.

# Amerikalı qadınlar Melania Trampa bənzəmək üçün plastik cərrah qapısında qalıblar



**Amerikanın qadınları ölkənin birinci ledisi Melania Trampa bənzəmək üçün plastik əməliyyatlara girirlər. Bu barədə Daily Beast xəbər verir. Yazıda qeyd olunub ki, Teksas (Texas) ştatındakı Hyuston şəhərinin plastik cərrahı Franklin Rous deyir ki, son illər pasiyentləri onları "birinci varis" İvanka Trampa bənzətmələrini xahiş edirdi. Amma son vaxtlar amerikan qadınların yeni kumiri meydana gəlib - 47 yaşlı birinci ledi.**

Nəşr yazır ki, "İvanka dəbdən düşüb, Melania isə dəbə minib". Rouzun pasiyentlərindən biri, Kladudiya Sierra Missis Trampa bənzəmək üçün sinəsinin kiçildilməsi, rinoplasika, abdominaplastika, liposaksiya, qlyuteoplastika və blefaroplastika əməliyyatlarından keçib. Onun üzündə botoks və filler edilib. Sierra deyib ki, onunçün Melania hakimiyyətin və gücün simvolu kimi assosasiya olunur.

Hazırda Rouzun klinikasında birinci lediyə bənzəmək üçün kompleks xidmətlər təklif olunur ki, bunun da adı Melania Makeover ("Melaniaya çevrilmə") adlanır. Cərrah bildirib ki, onun fikrincə, prezidentin həyat yoldaşı möhtəşəm görünür.

1980-ci illərin sonundan 2000-ci illərə qədər gələcəyin birinci ledisi Milanda, Parisdə və Nyu Yorkda model kimi çalışıb. O, öz karyerasını ərə gedəndən sonra yekunlaşdırıb. Onun boyu 180 santimerdir, çəkisi isə 58 kilo ilə 62 kilo arasında "oynayır". Ölçüləri (sinə, bel, yançaq) - müvafiq olaraq 96,5, 66 və 94 santimetrdir.

## Qoroskop




**QOÇ** - Ümumi məziyyətlərinə görə uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Yersiz mübahisələrə baş qoşmayın.

**BUĞA** - İyun ayının ən uğurlu günlərindən birini yaşayacaqsınız. Bir tərəfdən maraqlı görüşlər, digər tərəfdənsə perspektivli sövdələşmələr sizi sevindirəcək. Yeni təkliflər də mümkündür.

**ƏKİZLƏR** - Yaxşı olar ki, bu təqvimin əsas vaxtını istirahətdə keçirəsiniz. Çox da uzaq olmayan ünvanlara səfər etməyiniz də yaxşı olar. Yeni işlərə başlamaqsa hələ tezdir. Nahardan sonra pul gözlənilir.

**XƏRÇƏNG** - Mənfi yüklü Ay bürcünüzdə qərar tutduğundan tay-tuşlarınızla müəyyən mübahisələriniz gözlənilir. Özünüzü qalmaqallara istiqamətləndirməyin. Yaşca sizdən kiçiklərə qayğı göstərin.

**ŞİR** - Ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətinizi göstərin. Qidanıza fikir verin.

**QIZ** - Saat 17-yə qədər riskli planlarınızı reallaşdırmağa çalışın. Qalan müddət isə bu baxımdan səmərəli deyil. Qohum-əqraba ilə əlaqə saxlamaq, görüşmək üçün bu təqvimin böyük əhəmiyyəti var.

**TƏRƏZİ** - Kollektiv gəzintilərə çıxmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra isə maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.

**ƏQRƏB** - Maddi problemlərinizin qabarmasından narahat olmayın. Çünki yaxın vaxtlarda bu istiqamətdə uğurlarınız artacaq. İndi yalnız görəcəyiniz işləri konkretləşdirməlisiniz.

**OXATAN** - Yalnız sövdələşmələr üçün münasib vaxtdır. Amma bu tövsiyələrə günün ikinci yarısında əməl etməlisiniz. Hər hansı fiziki işlərə başlamaq, səfərə çıxmaq isə yolverilməzdir.

**OĞLAQ** - Səhhətinizlə bağlı xırda problemləriniz gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra biləsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.

**SUTÖKƏN** - Ailədə və sevgi münasibətlərində vəziyyət xeyrinizə olduğundan əsas üstünlüyü bu istiqamətə yönəltməlisiniz. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə ümidlə baxın.

**BALIQLAR** - Qohumluq münasibətlərində səxavətli olmağınız məsləhət görülür. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Vaxt tapıb müqəddəs yerləri ziyarət edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Zibillərdən şəkil sərgisi düzəltdi




Fransız fotoqraf tapa bildiyi qədər istifadə olunmuş məhsulu zibil yeşiyinə atmadı və bunları uyğun şəkildə yerlərinə qoydu. 2011-ci ildən bəri bu çalışmanı bitirməyə çalışan fotoqraf sonunda işlərini bütün dünya ilə paylaşdı. Şəkil çəkilişi hazırlanarkən 1600 süd şüşəsi, 4,800 tualet kağızı və ümumi ağırlığı 800 kilo olan qəzetlərdən zibil düzəldildi. Bu zibillərin ölçüsü isə 70 metrdən artıq oldu. Daha sonra bu zibillərlə bir şəkil çalışmasına başlayan sənətçi ortaya bu şəkilləri çıxardı.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ
Lisenziya N: B 114
SAYI: 5.100